HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 51 (842) ▪ 29 dekabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Azərbaycan idman aləmində dünyanın aparıcı dövlətlərindəndir

Dekabrın 23-də Milli Olimpiya Komitəsində 2016-cı ilin idman yekunlarına həsr olunmuş tədbir keçirilib. Azərbaycanın dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.




Tədbirdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan dünya miqyasında güclü idman dövləti kimi tanınır. Bizim idman uğurlarımız çox parlaqdır. Hər oyundan-oyuna Azərbaycanın qazandığı medalların sayı artır. Bu, müsbət dinamikadır, Azərbaycan idmanı daim inkişafdadır. Prezident İlham Əliyev qeyd edib ki, bu il idmançılarımız beynəlxalq yarışlarda yüzlərlə medal qazanıblar: «Həm böyüklər, həm gənclər, həm də yeniyetmələr arasında keçirilən bütün beynəlxalq idman tədbirlərində Azərbaycan layaqətlə təmsil olunur. Son illər ərzində çox güclü idmançılar nəsli yetişib. Gənclərimiz - müstəqillik dövründə doğulan, yetişən idmançılar bu gün şöhrətimizi yüksəklərə qaldırırlar. 2016-cı il ölkəmizin idman tarixində xüsusi yer tutacaq. İlk növbədə, ona görə ki, biz bu il Rio Yay Olimpiya Oyunlarında tarixi qələbə qazanmışıq. Bu Oyunlarda 200-dən çox ölkə iştirak edirdi. Bu, böyük tarixi qələbədir. Bu, həm idmançılarımızın gücünü, eyni zamanda, dövlətimizin gücünü göstərir. Çünki ancaq inkişaf etmiş güclü dövlətlərdə idman da inkişaf edir və gözəl idman nəticələri vardır. Əgər yüksək yerləri tutan ölkələrin siyahısına baxsaq görərik ki, onların mütləq əksəriyyəti zəngin və inkişaf etmiş ölkələrdir. O ölkələrdir ki, onlarda dövlətçilik ənənələri çox böyükdür. Bizim isə cəmi 25 yaşımız var. Biz bu il müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etmişik və idmançılarımızın qələbəsi bu bayram günlərinə gözəl bir hədiyyə olmuşdur».

Medalların sayına görə ölkəmizin Avropada 7-ci yerdə, dünya miqyasında 14-cü yerdə, MDB və postsovet məkanında 2-ci və müsəlman aləmində 1-ci yerdə olduğunu diqqətə çatdıran dövlətimizin başçısı vurğulayıb ki, ötən il Bakıda keçirilmiş Avropa Oyunları bir daha idmanımızın inkişaf səviyyəsini göstərdi: «Bu Oyunlarda çox gərgin mübarizədə bütün Avropa ölkələri arasında ikinci yeri tutmaq doğrudan da böyük qələbədir, böyük qəhrəmanlıqdır. Siz də yaxşı xatırlayırsınız, təbii ki, mən də. Bu Oyunlar ərəfəsində, Oyunlar zamanı və sonra Azərbaycana qarşı məqsədli şəkildə, əvvəlcədən planlaşdırılmış qaydada aparılan çirkin kampaniya da çalışırdı ki, bu Oyunlara ləkə vursun, bizim imkanlarımızı aşağılasın və idmançılarımızın qələbəsini təhrif etsin ki, Azərbaycan bu Oyunların keçirilməsi ilə məşğul olan ölkədir, ev sahibliyi edir, ona görə də yüksək nəticələrdir. Rio Yay Olimpiya Oyunlarında əldə edilmiş qələbə bax, bu çirkin şayiələrə növbəti bir tutarlı zərbədir. Biz həm keçən il yüksək idman nəticələri göstərdik, eyni zamanda, bu Oyunların keçirilməsi də bütün beynəlxalq idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib».

Prezident İlham Əliyev Azərbaycanda gələn il İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyinə diqqət çəkib, bu il ölkəmizdə elan olunmuş «Multikulturalizm ili» çərçivəsində bir çox mötəbər tədbirlərin, Bakıda Ümumdünya Şahmat Olimpiadasının təşkil olunduğunu xatırladıb. Hazırda idman infrastrukturunun yaradılması prosesinin davam etdiyini vurğulayan dövlətimizin başçısı bölgələrdə 40-dan çox müasir Olimpiya İdman Kompleksinin yaradıldığını, gələn il Abşeron və Ağcabədi rayonlarında iki Olimpiya İdman Kompleksinin açılacağını, bir neçə idman kompleksinin tikintisinin davam etdirildiyini, gələcək illərdə də bu istiqamətdə işlərin davam etdiriləcəyini bəyan edib.

Sonra 2016-cı ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olunub. Tədbirin sonunda Azərbaycan Prezidentinə xatirə hədiyyələri təqdim edilib.

# «Bakı Ağ Şəhər» layihəsi çərçivəsində işlər davam edir

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Bakı Ağ Şəhər»də görülən işlərlə tanış olub, Fəvvarələr Meydanı parkı, ictimai parkinq və piyada keçidi kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib. Qeyd olunub ki, Xəqani Rüstəmov küçəsi ilə Nobel prospektinin kəsişməsindəki yeraltı piyada keçidində işlər tamamlanmaq üzrədir. Burada 220 metr uzunluğunda qalereyanın tikintisi yekunlaşıb, hazırda mərmər-qranitdən istifadə olunmaqla tavanın üzlənməsi işləri davam etdirilir. Həmin keçiddə 8 eskalator quraşdırılıb. Bundan başqa, layihə çərçivəsində daha iki piyada keçidinin inşası nəzərdə tutulur.

«Bakı Ağ Şəhər» layihəsi üzrə Xəqani Rüstəmov və Süleyman Vəzirov küçələri də daxil olmaqla yeni salınan yolların ümumi uzunluğu 22,3 kilometrə çatacaq, eni isə 16 metrdən 47 metrədək dəyişəcək. Ümumilikdə, burada 63 çoxsaylı kəsişən yolun təmiri və asfaltlanması həyata keçiriləcək. Bakının iki əsas prospektini - Babək və Nobel prospektlərini birləşdirən Xəqani Rüstəmov küçəsi 3 gediş və 3 gəliş olmaqla 6 hərəkət zolağından ibarətdir. «Ağ Şəhər» layihəsi çərçivəsində «Yaşıl Ada və Villa Zonası» adlanan ərazidə ümumi uzunluğu 2 kilometrə çatan əsas və kəsişən bir neçə küçədə işlər yekunlaşıb.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Bakı Ağ Şəhər» ərazində tikinti işlərinin gedişi ilə tanış olmaq üçün avtobusla gəzintiyə çıxıblar. Qeyd edilib ki, şəhərin qədim və iri parklarından olan Nizami Parkının yaxınlığında yerləşən Knightsbridge (Naytsbric) kompleksində yaşayış binaları, biznes mərkəzi və məktəbin tikintisi aparılır. Park rayonunda 20 mərtəbəli binalar inşa olunur, yeni istinad divarı tikilir.

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Bakı Ağ Şəhər» çərçivəsində layihələndirilən Fəvvarələr Meydanı parkı, piyada keçidi və ictimai parkinq kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

# Təməlqoyma mərasimi keçirilib

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin birinci layihəsi olan Yasamal Yaşayış Kompleksində inşa ediləcək ilk doqquzmərtəbəli binanın və məktəb binasının təməlqoyma mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər. Bildirilib ki, kompleksin ümumi sahəsi 11,6 hektar olacaq. Bu ərazinin seçilməsində rahat yaşayış üçün bir neçə mühüm məqam nəzərə alınıb. Belə ki, ərazi şəhərin ekoloji cəhətdən təmiz və əlverişli hissəsində yerləşir. Ərazinin yaxınlığında 5 hektara yaxın yaşıllıq zonasının olması isə onun ekoloji durumunu daha da yaxşılaşdırır.

Yaradılacaq bu ilk şəhərcik 29 çoxmənzilli yaşayış binasından ibarət olacaq. Bunlardan 17-sinin ikibloklu doqquzmərtəbəli, 12-sinin isə birbloklu 12 mərtəbəli olması planlaşdırılır. Bu binalardakı 1854 mənzildən 301-i birotaqlı, 1110-u ikiotaqlı, 443-ü isə üçotaqlı olacaq. Birotaqlı mənzillərin sahəsi təqribən 31 kvadratmetrdən 33 kvadratmetrədək, ikiotaqlı mənzillərin sahəsi təqribən 50 kvadratmetrdən 58 kvadratmetrədək, üçotaqlı mənzillərin sahəsi isə təqribən 70 kvadratmetr təşkil edəcək.

Prezident İlham Əliyev Yasamal Yaşayış Kompleksində inşa olunacaq ilk doqquzmərtəbəli binanın və məktəb binasının təməlini qoyub.

# Bakıda yeni sosial infrastruktur obyektləri istifadəyə verilib

Dekabrın 24-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İçərişəhərdə Marionet Teatrının açılışında iştirak ediblər. Dövlətimizin başçısı teatrın binasının rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub. Marionet Teatrı fenomeni yetərincə maraqlı olmaqla yanaşı, dünyada populyar olan teatr incəsənəti janrlarındandır. Bu janr teatr növləri arasında çox çətin başa gələn və eyni zamanda, ən maraqlı və cəlbedici sayılanlardan biridir. Çətin olduğuna görə, əksər ölkələrdə belə teatr ənənəsi mövcud deyil. Azərbaycanda Marionet Teatrı ilk dəfə 1980-ci illərin ortalarında rejissor və rəssam Tərlan Qorçunun təşəbbüsü ilə yaranıb.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva teatrın səhnəsində marionet kuklalarının ifasında «Leyli və Məcnun» operasından bir hissəyə tamaşa ediblər. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin yeni «Şirvanşahlar» kolleksiyası ilə də tanış olublar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İçərişəhərdəki «Bəylər» məscidinin bərpa və konservasiya işlərindən sonra keçirilən təqdimat mərasimində də iştirak ediblər. Dövlətimizin başçısına və xanımına görülən işlərlə bağlı ətraflı məlumat verilib. Bildirilib ki, İçərişəhər ərazisində inşa olunan bu sonuncu məscid zalın böyüklüyünə və tikinti quruluşuna görə digər dini abidələrdən fərqlənir. Onun inşasında Avropa, Şərq, eləcə də yerli memarlığın konstruktiv prinsiplərindən istifadə olunub.

Memarlıq abidəsi qədim məscidin yerində tikilib. Ekspozisiyada İslam dininin müqəddəs əmanəti olan müxtəlif dövrlərə aid qədim «Qurani-Kərim» kitabları nümayiş etdirilir. Burada 73 Quran, 7 dini kitab, 19 dini atributdur - ümumilikdə, 99 eksponat nümayiş olunur. Yanğından hifz olunan kitabların vərəqləri, Dərbənd məscidinə aid və axund tərəfindən divara hörülərək qorunan Quran, eləcə də burada nümayiş etdirilən Quranın cüzləri ekspozisiyada diqqəti cəlb edən eksponatlardır.

Həmin gün Azərbaycan



Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Xəzər rayonunda Qala-Pirallahı avtomobil yolunun ikinci hissəsinin və Bakı Konqres Mərkəzinin qarşısında yeni salınmış istirahət parkının açılışında da iştirak ediblər.

Bildirilib ki, ümumi sahəsi 7 hektardan çox olan park qısa müddətdə yaradılıb. Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi bu istirahət məkanında genişmiqyaslı yaşıllıq işləri də həyata keçirilib. Parkın ümumi ərazisində 300-dən çox müxtəlif növ ağac, 50 mindən artıq gül və kol bitkiləri əkilib. Buradakı yaşıllıqların suvarılması üçün müasir drenaj sistemi yaradılıb, 20 kilometrdən çox boru-damcı suvarma və 1000-ə yaxın çiləyici vasitə quraşdırılıb.

Ərazidə 4 müxtəlif istirahət zonası salınıb. Parkdakı idman zonasında müxtəlif trenajorlar və qurğular qoyulub. Parkda uşaqlar üçün də xüsusi zonalar quraşdırılıb, həmin zonalar 2700 kvadratmetrə yaxın yumşaq səthlə örtülüb. İstirahət parkının ərazisində fəvvarə və ümumi sahəsi 2200 kvadratmetrə yaxın 3 göl yaradılıb. Göllərin yaradılmasında müasir texnologiya və avadanlıqdan istifadə edilib. Parkda sintetik örtüklə təchiz edilmiş buz meydançası da var. İlin bütün fəsillərində fəaliyyət göstərəcək meydançanın ümumi sahəsi 2130 kvadratmetrdir.

## BU NÖMRƏMİZDƏ

ZAMANIN ÇAĞIRIŞLARINDAN İRƏLİ GƏLƏN DƏYİŞİKLİKLƏR HƏM SAHİBKARLARIN, HƏM DƏ VERGİ ORQANLARININ MARAQLARINA XİDMƏT EDƏCƏKDİR 2

VERGİLƏR NAZİRİ UCARDA VƏTƏNDAŞLARI QƏBUL EDİB 3

VERGİLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB 3

AZƏRBAYCAN RESPUBLİKASININ VERGİ MƏCƏLLƏSİNDƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU 4

# Zamanın çağırışlarından irəli gələn dəyişikliklər həm sahibkarların, həm də vergi orqanlarının maraqlarına xidmət edəcəkdir

**Dünya maliyyə və kapital bazarlarında hökm sürən mürəkkəb iqtisadi şəraitdə Azərbaycanda genişmiqyaslı islahatlar həyata keçirilir və bu, vergi sistemində də özünü aydın göstərir. Vergi sistemindəki yeniliklər barədə suallarımızı Azərbaycan Respublikasının vergilər naziri, I dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov cavablandırır.**



***- Cənab nazir, ölkəmizin vergi sistemində aparılan islahatların əsas istiqamətlərini necə səciyyələndirmək mümkündür?***

- Son dövrlər istər regionda, istərsə də qlobal iqtisadiyyatda gedən proseslər, neft gəlirlərinin azalması, dünya iqtisadiyyatında mövcud olan qeyri-müəyyənlik, mürəkkəb xarici iqtisadi mühit ölkəmizin makroiqtisadi və maliyyə sabitliyinə təsirsiz ötüşməyib. Lakin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü və uzaqgörən siyasi kursu qətiyyətlə davam etdirməsi sayəsində, eləcə də ölkədə struktur və institusional islahatların sürətləndirilməsi, fəal fiskal siyasətin həyata keçirilməsi, əhalinin həssas sosial qruplarının müdafiəsinin gücləndirilməsi, qeyri-neft məhsullarının ixracının artırılması və sənayenin artım sahələrinin inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər nəticəsində Azərbaycan qlobal proseslərin təsirindən qorunmağa, itkilərini minimuma endirməyə və əhalinin sosial müdafiəsinin təmin edilməsinə nail ola bilib.

Dövlət başçısının fərmanı ilə təsdiqlənmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində qlobal iqtisadiyyat və maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya, postneft iqtisadi inkişaf modelinin dəstəklənməsinə yönəlmiş yeni strateji hədəflər və prioritetlər öz əksini tapıb. Bu hədəflərə çatmaq və yeni iqtisadi inkişaf modelinə keçidlə bağlı dövlət başçısı tərəfindən müəyyənləşdirilmiş konkret vəzifələrin icrasını təmin etmək məqsədilə vergi orqanları da bütün səylərini səfərbər ediblər. Dövlət büdcəsinin gəlirlərinin artırılması üçün Vergilər Nazirliyi tərəfindən vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi potensialının düzgün müəyyənləşdirilməsi və yeni vergi mənbələri hesabına vergitutma bazasının genişləndirilməsi, vergilərin tam həcmdə və vaxtında ödənilməsinə nəzarətin artırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Vergi risklərinin müəyyən edilməsi və yayındırılan vergilərin aşkarlanması məqsədilə «risklərin idarə edilməsi» kimi innovativ alətlərin uğurla tətbiqinə başlanılıb, iri vergi ödəyicilərində elektron auditin tətbiqi dairəsi genişləndirilib.

Ölkədə sahibkarlığın və investisiyaların təşviqi, ixracın stimullaşdırılması, biznesin dəstəklənməsi, iqtisadiyyatın rəqabətə davamlılığının artırılması və qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə 2016-cı ilin birinci yarısında vergi qanunvericiliyinə bir sıra dəyişikliklər edilib. Bu siyasətin davamı olaraq, cənab Prezident tərəfindən bu il avqustun 4-də «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncam imzalanıb.

Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə nazirliyin kollegiyasının qərarı ilə bəyannamələrin kameral vergi yoxlamalarının, səyyar vergi yoxlamalarının, elektron auditin keçirilməsi və digər məsələlərlə bağlı qaydalar sərəncamdan irəli gələn müasir tələblər nəzərə alınmaqla yenilənib və təsdiq edilib. Əsas məqsəd vergi yoxlamalarının aparılması qaydalarının təkmilləşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının qorunmasına yönəldilmiş daha şəffaf vergi sisteminin qurulması, mütərəqqi informasiya texnologiyalarının tətbiqi yolu ilə onun səmərəliliyinin yüksəldilməsidir.

> Son dəyişikliklərin əsas məqsədi və hədəfi kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimad səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır

Ölkəmizə turist axınının artımında mühüm rol oynayan «Tax Free» sisteminin tətbiqinə başlanılıb. Cari ilin sentyabr ayında isə Qlobal Forumun Qiymətləndirmə Qrupu Azərbaycan Respublikasının vergi sistemində şəffaflığın və məlumat mübadiləsi sisteminin beynəlxalq standartlara uyğunluğu ilə bağlı ölkə hesabatını qəbul edərək ölkəmizə yüksək reytinq verib. Vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin artırılması məqsədilə 2017-ci ilin yanvarından intizamlı vergi ödəyicilərinə xidmətin «Yaşıl dəhliz» prinsipi əsasında həyata keçirilməsi üçün hazırlıq işləri başa çatdırılıb. Şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri üçün fərdi və sürətli innovativ texnologiyalara söykənən xidmətlərin göstərilməsi vergi orqanları və sahibkarlar arasında münasibətlərin yeni müstəviyə qaldırılması istiqamətində çox mühüm addım hesab edilə bilər.

Cənab Prezidentin sərəncamından irəli gələn məsələlərin həlli, vergi orqanları qarşısında qoyulmuş vəzifələrin səmərəli icrası, vergi ödəyiciləri ilə qarşılıqlı etimada əsaslanan partnyorluq münasibətlərinin qurulması və geniş vergi xidmətlərinin göstərilməsi məqsədilə nazirliyin strukturu və menecmenti müasir idarəetmənin tələblərinə uyğun olaraq, yenidən qurulub. Son aylar qarşıda duran əsas məsələlərdən biri də «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanun layihəsinin hazırlanması idi. Layihə artıq Milli Məclis tərəfindən qəbul olunub və dövlət başçısı tərəfindən imzalanıb.

***- Vergi Məcəlləsinə əsas dəyişikliklər nədən ibarətdir?***

- Hər şeydən əvvəl deyim ki, vergi orqanları dövlətin vergi siyasətini həyata keçirən qurumdur və əlbəttə, dövlət büdcəsinin gəlirlərinin formalaşmasına məsul orqan olaraq, vergi gəlirlərinin artırılmasında maraqlı tərəfdir. Lakin ölkəmizdə həyata keçirilən vergi siyasətinin ən vacib elementlərindən biri əlverişli biznes mühitinin yaradılması, biznesin iqtisadi inkişafa yönümlü olması, dövlətin iqtisadi maraqları ilə yanaşı, sahibkarların və vətəndaşların maraqlarına cavab verməsidir.

Vergi Məcəlləsinə həm həcm, həm də mahiyyət baxımından olduqca ciddi dəyişikliklər edilmişdir. Son dəyişikliklərin əsas məqsədi və hədəfi kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimad səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır. Dəyişikliklər zərfi beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində, qabaqcıl beynəlxalq təcrübənin yaxından öyrənilməsi, biznesi təmsil edən təşkilatların və sahibkarların ictimai birliklərinin təkliflərinin müzakirəsi əsasında hazırlanıb. Qanunvericiliyə dəyişikliklər Milli Məclisin komitələrində çox ciddi müzakirələrdən keçib və millət vəkilləri tərəfindən də müsbət qarşılanıb.

Bütövlükdə, Vergi Məcəlləsinə 201 dəyişiklik edilib. Məcəlləyə 115 yeni maddə əlavə olunub, 83 maddəyə dəyişiklik edilib, 3 maddə isə ləğv olunub. Dəyişiklikləri qruplaşdırsaq, 123 maddə vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, 34 maddə vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8 maddə isə vergi yükünün azaldılması və ya vergi güzəştləri və vergidən azadolmalarla bağlıdır.

Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə yaradılan icbari tibbi sığorta və səhiyyə (tibb) xidmətləri göstərən qurumların gəlirləri mənfəət vergisindən müddətsiz, buğdanın idxalı və satışı, buğda unu və çörəyin istehsalı və satışı, quş ətinin satışı isə 3 il müddətində ƏDV-dən azad edilib.

Bankların restrukturizasiya və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi 2017-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilib. Banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinin, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividendin, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirlərinin gəlir vergisindən azad edilməsi müddəti 7 ilə qədər - 2023-cü ilin fevral ayınadək uzadılıb.

Sahibkarların vergi yükünün azaldılması ilə yanaşı, onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin qaytarılması müddətləri də qısaldılıb.

Bu azadolmalar və dəyişikliklər vergi ödəyicilərinin vergi yükünün aşağı salınmasına, dövriyyə vəsaitlərindən səmərəli istifadə etmələrinə şərait yaradacaq, sahibkarlığın inkişafına dəstək verəcək və nəticələr son istehlakçıya yönəldiyindən, sosial əhəmiyyət daşıyacaq.

Məcəlləyə edilmiş dəyişikliklərdən biri də kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması ilə bağlıdır. Kənd təsərrüfatı məhsullarının istehsalçıları vergilərdən azad olunsa da, onların məhsulları ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən məhsulların da tam dəyəri ümumi qaydada ƏDV-yə cəlb edilirdi, bu da pərakəndə satış qiymətində bahalaşmaya səbəb olurdu. Qeyd edilənləri nəzərə alaraq, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlar tərəfindən Azərbaycanda istehsal edilmiş kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanacaq.

Məcəlləyə edilmiş dəyişikliklərin bir hissəsi vergitutma bazasının genişləndirilməsi ilə bağlıdır. Araşdırmalar göstərir ki, iqtisadiyyatın ayrı-ayrı sahələrində vergidən yayınma hallarına hələ də rast gəlinir. Bu, özünü bəzi sahibkarların vergi orqanlarında qeydiyyatdan keçməməsində, uçot-məlumat bazasının düzgün aparılmaması və yaranmış vergi öhdəliklərinin düzgün göstərilməməsində, vergi ödəyicilərinin mənfəətinin minimallaşdırılması məqsədilə müxtəlif metodların tətbiqində, vergi yükü aşağı olan offşor zonalarda qeydiyyatdan keçməklə vergilərin yayındırılmasında, büdcəyə vergilərin tam və vaxtında ödənilməməsində və s. formalarda göstərir. Vergi islahatlarına dair yeni istiqamətlər məhz bu sahələrdə vergi nəzarətinin gücləndirilməsini, bəzi hallarda isə (məsələn, elektron ticarətdə) vergi nəzarətinin yenidən qurulmasını nəzərdə tutur. Rezident vergi ödəyicilərinin ölkə hüdudlarından kənarda, o cümlədən vergi sığınacağı (offşor) hesab edilən ərazilərdə təsis edilmiş vergi ödəyiciləri ilə apardıqları əməliyyatlara nəzarətin təmin olunması məqsədilə belə gəlirlərə transfer qiymətlərinin tətbiq edilməsi nəzərdə tutulur.

***- Vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatların uçotunun şəffaflaşdırılması ilə bağlı qanunvericilikdə nə kimi dəyişikliklər edilib?***

- Ölkəmizdə mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi sahəsində mövcud vəziyyətin təhlili göstərir ki, qaimə-fakturaların kağız formasında tətbiqi bəzən bir sıra problemlərə və nəticə etibarilə vergidən yayınma hallarına şərait yaradır. Bunun qarşısını almaq məqsədilə Vergi Məcəlləsinə edilən dəyişikliklərlə sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi zamanı elektron qaimə-fakturanın təqdim olunması tələb ediləcək.

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 1 aprel 2017-ci il tarixdən, bütün digər vergi ödəyiciləri isə 1 yanvar 2018-ci il tarixdən malların, işlərin və xidmətlərin alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim etməlidirlər. Bu dəyişiklik sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edir.

Uçot sisteminin şəffaflaşdırılması ilə bağlı Vergi Məcəlləsinə daha bir dəyişiklik iqtisadi fəaliyyət sahələri üzrə vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydalarının müəyyən edilməsi ilə bağlıdır. Bu, uçot sisteminin təkmilləşdirilməsi, malların alğı-satqı prosesində hərəkət zənciri boyu sənədləşmənin aparılması, son nəticədə vergidən yayınmanın qarşısının alınması istiqamətində mühüm bir dəyişiklik hesab edilə bilər.

Vergi Məcəlləsində edilmiş dəyişikliklərdən biri də topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarların müəyyən edilməsidir ki, bu da sahibkarlar ilə vergi orqanları arasında yarana biləcək fikir ayrılıqlarının qarşısının alınmasına və vergi ödəyicilərinin maliyyə sanksiyalarına məruz qalmamalarına imkan yaradacaq.

Vergi Məcəlləsinə dəyişikliklər sırasında şəffaflığın təmin edilməsi ilə bağlı müddəalar da mühüm yer tutur. Azərbaycan Respublikası rezidentlərinin güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə (offşor zonalarda) yaradılmış müəssisələrlə əməliyyatlarına səmərəli nəzarət mexanizmlərinin yaradılması bu sahədə şəffaflığın təmin edilməsinə yönəldilib. Bu məqsədlə Məcəlləyə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlərə rezidentlər və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlərin Azərbaycan mənbəyindən gəlirlərə aid olunması və həmin ödənişlərdən ödəmə mənbəyində əlavə 10 faiz dərəcə ilə verginin tutulması ilə bağlı müddəalar daxil edilib.

Daha bir mühüm məsələ rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb olunmasının işlək mexanizminin müəyyən edilməsidir. Qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərə əsasən, elektron ticarət qaydasında qeyri-rezidentlərdən işlərin və xidmətlərin təqdim edilməsinə, habelə elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin keçirilməsinə görə ƏDV alıcının olduğu yerdə tətbiq ediləcək. Bir daha qeyd etmək istərdim ki, burada söhbət qeyri-rezidentlərdən, internet üzərindən xaricdən alınmış mallardan deyil, iş və xidmətlərdən gedir. Bu dəyişikliyin əsas məqsədi rəqabət şərtlərini eyniləşdirmək və uçot sistemi qurmaqdır.

***- Məcəllədəki dəyişikliklərin bir qismi də vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi ilə bağlıdır...***

- Cənab Prezident öz çıxışlarında dəfələrlə qeyd edib ki, dövlətimizin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Vergi qanunvericiliyinə edilmiş son dəyişikliklərdə də vergi ödəyicilərinin hüquqlarının qorunması və genişləndirilməsi başlıca prinsiplərdəndir.

Bəzi hallarda sahibkarlar tərəfindən vergi öhdəliklərinin hər hansı səbəbdən düzgün müəyyən edilməməsi vergi ödəyicilərinin əlavə maliyyə sanksiyalarına məruz qalması ilə nəticələnir. Bu məqsədlə vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması qaydasının («Advance tax ruling») müəyyən edilməsi nəzərdə tutulur. Bu sistem inkişaf etmiş ölkələrdə istər fərdi sahibkarlar, istərsə də iri şirkətlər üçün geniş istifadə edilən səmərəli alətlərdəndir. Bu zaman vergi ödəyicilərinin müraciəti əsasında vergi orqanları qanunvericilikdə nəzərdə tutulmuş qaydada həmin sahibkarlıq subyektinin əməliyyatları üzrə yarana biləcək vergi öhdəliyi barədə məlumat hazırlayaraq ona təqdim edirlər. Bu isə sahibkarı maliyyə itkilərindən sığortalayır, risklərini minimallaşdırır, dövriyyə vəsaitindən səmərəli istifadə etməyə və biznesi planlaşdırmağa imkan verir.

Digər dəyişiklik kameral vergi yoxlamaları ilə bağlıdır. Ölkə başçısı tərəfindən kameral vergi yoxlamalarının konkret olaraq verilmiş bəyannamələr əsasında 30 gün ərzində başa çatdırılması tapşırılıb və bu məqsədlə qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, kameral vergi yoxlamasının vergi bəyannaməsinin təqdim edildiyi vaxtdan 30 iş günü müddətində həyata keçirilməsi və müddət başa çatdıqdan sonra həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlamasının keçirilməsi qadağan edilib.

Vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edən yeniliklərdən biri də «Könüllü vergi açıqlaması» («Voluntary tax disclosure») sisteminin tətbiqidir. Məlum olduğu kimi, sahibkarlıq subyektlərində aparılan səyyar vergi yoxlamalarının başa çatmasından asılı olmayaraq, vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda növbədənkənar vergi yoxlaması keçirilə bilərdi.

*Ardı 3-cü səh.*

# Zamanın çağırışlarından irəli gələn dəyişikliklər həm sahibkarların, həm də vergi orqanlarının maraqlarına xidmət edəcəkdir

*Əvvəli 2-ci səh.*

Bu zaman keçirilən vergi yoxlaması ilə büdcədən yayındırılmış vergi məbləğləri dövlət büdcəsinə bərpa edilməklə, həmin yayındırılmış məbləğə 50 faiz miqdarında maliyyə sanksiyası tətbiq edilirdi. Məcəlləyə edilmiş dəyişikliklərlə könüllü vergi açıqlamasına razılaşmış vergi ödəyiciləri sanksiyalardan azad olacaqlar. Vergi ödəyicisinə könüllü vergi açıqlaması barədə səyyar vergi yoxlamasının əhatə etdiyi dövrlərə görə bəyannamə təqdim etmək hüququ verilir. Həmin bəyannamə ilə könüllü olaraq açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanmır və maliyyə sanksiyası tətbiq edilmir.

***- Geniş müzakirələrə səbəb olmuş sabit verginin tətbiqi ilə bağlı fikrinizi bilmək maraqlıdır...***

- Qeyd etmək lazımdır ki, sabit vergi fərdi qaydada, yəni muzdlu işçi cəlb etmədən müəyyən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərə tətbiq ediləcək. Bu ödəyicilər kiçik həcmdə gəlirlərə malik olan, məsələn, fərdi foto, audio-video xidmətləri göstərən, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri ilə məşğul olan, fərdi yaşayış evlərində qulluqçuluq, sürücülük edən və s. analoji işlərlə məşğul olan şəxslərdir. Sabit verginin tətbiq olunması nəzərdə tutulan fiziki şəxslər mövcud qanunvericiliyə görə də vergi uçotuna alınmalı, bəyannamə təqdim etməli və vergilərini hesablayıb dövlət büdcəsinə ödəməlidirlər.

Bəzi fəaliyyət növlərinin sadələşdirilmiş vergiyə cəlb olunması ilə bağlı Vergi Məcəlləsinə edilmiş dəyişikliyin əsas məqsədi isə bu fəaliyyətlə məşğul olan şəxslərdən vergilərin toplanmasından daha çox bu sahədəki uçotun sadələşdirilməsi və həmin şəxslərdə inzibati yükün minimuma endirilməsi məqsədini daşıyır. Sabit vergi mexanizmi, ilk növbədə, belə fəaliyyətin və istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqlarının da nağdsız qaydada həyata keçirilməsinə yol verilir.

Nağd hesablaşmalarla bağlı məhdudiyyətlər Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdə də yer alır. Banklardan nağd pul vəsaitlərinin çıxarılmasının məhdudlaşdırılması məqsədilə hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə banklar və poçt rabitəsinin milli operatorları tərəfindən 1 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi tutulacaqdır. Burada xüsusilə vurğulamaq lazımdır ki, nağd pul vəsaitlərinin bank hesablarından çıxarılmasına görə 1 faiz dərəcə ilə sadələşdirilmiş verginin tutulması ümumilikdə vətəndaşlara deyil, yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə tətbiq olunacaqdır.

Bu dəyişikliklər bütövlükdə ölkədə nağdsız əməliyyatların həcminin artmasına, bankların maliyyə vəziyyətinin yaxşılaşmasına, maliyyə sektorunun likvidliyinin və büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin edilməsinə, əmək haqlarının və digər ödənişlərin leqallaşmasına şərait yaradacaq, eyni zamanda ölkəmizin beynəlxalq imicinə müsbət təsir göstərəcəkdir.

***- Bu günlərdə Milli Məclisdə «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» qanun layihəsi də müzakirəyə çıxarıldı. Bu məsələyə də şərh verməyinizi xahiş edirik.***

- Hər şeydən əvvəl qeyd edim ki, bu qanun layihəsi Milli Məclisə dövlət başçısının şəxsi təşəbbüsü ilə göndərilib və cənab Prezidentin ölkə sahibkarlarına göstərdiyi dəstəyin daha bir nümunəsidir. Qanun, ilk növbədə, vergi ödəyicilərinin iqtisadi fəallığının artırılmasına xidmət edir.

Qanun layihəsinə əsasən, vergilərin vaxtında

> “ Xüsusilə vurğulamaq lazımdır ki, nağd pul vəsaitlərinin bank hesablarından çıxarılmasına görə 1 faiz dərəcə ilə sadələşdirilmiş verginin tutulması ümumilikdə vətəndaşlara deyil, yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə tətbiq ediləcəkdir

fərdi qaydada iş və ya xidmət göstərən şəxslərin uçotunu düzgün aparmağa imkan verəcək. Bu isə, öz növbəsində, müvafiq dövlət qurumları tərəfindən işsizliyin səviyyəsinin dəqiq müəyyən olunmasına yardım edəcək.

Bu cür fəaliyyətlə məşğul olan fiziki şəxslər vergi öhdəliklərini bəyannamə təqdim etmədən, kiçik sabit məbləğ ödəməklə həyata keçirəcəklər. Məcəlləyə həmin fəaliyyət növlərinin siyahısı və verginin dərəcələri də daxil edilib.

***- Vergi ödəyicilərinin marağına səbəb olan mühüm yeniliklərdən biri də nağdsız hesablaşmaların genişləndirilməsi ilə bağlı yeni qanundur. Bu qanunun mahiyyəti nədən ibarətdir?***

- «Nağdsız hesablaşmalar haqqında» qanun layihəsi ölkə başçısının 4 avqust tarixli sərəncamı ilə verilmiş tapşırığa uyğun olaraq, Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birlikdə beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb və nağdsız ödənişlərin tətbiqi dairəsinin genişlənməsinə şərait yaradır.

Etiraf etmək lazımdır ki, bu sahədə biz hələ də dünyanın əksər ölkələrindən, o cümlədən qonşu Türkiyədən, hətta bir sıra MDB ölkələrindən geri qalırıq. Nağdsız ödənişlərin həcminin artırılması, ilk növbədə, pul dövriyyəsinin tənzimlənməsinə müsbət təsir göstərməklə yanaşı, maliyyə sektorunda kifayət qədər canlanma yaradacaq, vergidən yayınma hallarının azalmasına gətirib çıxaracaq və təbii ki, həm də vergi daxilolmalarının artmasına birbaşa təsir edəcək.

Burada bir neçə mühüm məqamı qeyd etmək istərdim. Qanuna əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən hesablaşmaların nağd qaydada aparılması ay ərzində 30 min manatadək, digər vergi ödəyiciləri tərəfindən isə ay ərzində 15 min manatadək məhdudlaşdırılır. Vergi ödəyiciləri tərəfindən bəzi hallarda, məsələn, kənd təsərrüfatı məhsullarının istehsalçılarından məhsulların alınması və s. kimi hallarda vergi ödəyicisi olmayan fiziki şəxslərdən malların nağd qaydada satın alınmasına icazə verilir.

Qanunla bir sıra ödəmələrin, xüsusilə müxtəlif vergi və rüsumların, sosial ödəmələrin, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqlarının və digər ödəmələrin nağdsız qaydada həyata keçirilməsinə dair tələblər müəyyən edilib. Əməliyyatlarının həcmi ardıcıl 200 min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər ödənilməməsinə görə hesablanmış faizlərin və Vergi Məcəlləsinin 58.7-ci maddəsində nəzərdə tutulan nağd əməliyyatların aparılması qaydalarının pozulmasına görə maliyyə sanksiyalarının 2017-ci ilin 1 yanvar vəziyyətinə istisnasız olaraq silinməsi, eləcə də Vergi Məcəlləsində nəzərdə tutulan digər maliyyə sanksiyalarının müəyyən ardıcıllıqla və şərtlər daxilində silinməsi təklif edilir.

Əminəm ki, bu qanun layihəsinin qəbulu vergi ödəyicilərinin sərəncamlarında kifayət qədər vəsaitin qalmasına, borc məbləğlərinin azalmasına təsir edəcək, sahibkarların iqtisadi fəallığının artmasına və vergi yükünün optimallaşdırılmasına xidmət edəcək. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, sahibkarların sərəncamında qalacaq vəsait də iqtisadi dövriyyəyə daxil olacaq və multiplikasiya effektini nəzərə alsaq, bunun iqtisadi səmərəsi bir neçə dəfə artacaq.

Bütövlükdə bu qanunların, eləcə də Vergi Məcəlləsinə dəyişikliklərin qəbulu ölkəmizdə vergi mühitinin cəlbediciliyinin artmasına, dövlət-biznes münasibətlərinin partnyorluq müstəvisinə keçidinin sürətlənməsinə təkan verməklə bərabər, iqtisadi fəallığın və fiskal dayanıqlılığın təmin olunmasına da müsbət təsir göstərəcəkdir.

Vergilər Nazirliyi 2017-ci ildə və sonrakı dövrlərdə də öz fəaliyyətini kiçik və orta sahibkarlığın dəstəklənməsinə, dövlət büdcəsinin gəlirlərinin artırılmasına, vergi ödəyiciləri ilə şəffaf partnyorluq münasibətlərinin genişlənməsinə xüsusi diqqət yetirəcəkdir. Bu məqsədlə artıq nazirliyin strukturunda müvafiq dəyişikliklər aparılıb, Bakı şəhərində kiçik sahibkarlarla iş üzrə ayrıca departament və iki mövcud departamentin tərkibində Şəffaf vergi partnyorluğu idarələri yaradılıb. Vergilər Nazirliyi insan resurslarının peşəkarlığının artırılması məsələsinə də xüsusi önəm verir. Artıq Avropa İttifaqı ilə birlikdə Vergilər Nazirliyinin insan resurslarının təkmilləşdirilməsi istiqamətində Tvinninq proqramı başa çatdırılıb. Biz qarşıdakı dövrdə də kadrların hazırlığı, müasir tələblərə cavab verən peşəkar vergi əməkdaşlarının yetişdirilməsi məsələlərini diqqət mərkəzində saxlayacağıq. Düşünürük ki, zamanın çağırışlarından irəli gələn bu dəyişikliklər bütövlükdə həm sahibkarların, həm də vergi orqanlarının maraqlarına xidmət edəcəkdir.

Sonda mən bütün xalqımızı qarşıdan gələn bayramlar - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, hər birimizə xoşbəxtlik, əmin-amanlıq, firavanlıq və uğur arzulayıram.

# Vergilər naziri Ucarda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər.

Dekabr ayının 23-də vergilər naziri Fazil Məmmədov Ucar şəhərində Zərdab, Ağdaş, Göyçay, Ucar və Kürdəmir rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildiriblər.

# Vergilər Nazirliyində kollegiya iclası keçirilib

## *«Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunun tətbiqi ilə bağlı Tədbirlər Planı qəbul edilib*

Dekabr ayının 28-də «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2016-cı il tarixli Qanununun tətbiqi ilə bağlı Vergilər Nazirliyinin qarşısında duran vəzifələrə həsr edilmiş kollegiya iclası keçirilib.

İclasda çıxış edən vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşlarının stimullaşdırılması istiqamətində həyata keçirilən iqtisadi siyasətin tərkib hissəsi olaraq, ötən illər ərzində milli vergi sistemində də geniş islahatlar aparılıb. Çevik vergi siyasətinin həyata keçirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan şəffaf mexanizmlər əsasında qurulması, onlara geniş xidmətlərin, o cümlədən elekron xidmətlərin təqdim edilməsi istiqamətində əhəmiyyətli işlər görülüb.

Vergilər naziri Azərbaycan Respublikası Prezidentinin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamına toxunaraq bildirib ki, sərəncamdan irəli gələn məsələlərin həlli, vergi orqanları qarşısında qoyulmuş vəzifələrin icrası, vergi ödəyiciləri ilə qarşılıqlı etimada əsaslanan partnyorluq münasibətlərinin qurulması məqsədilə ötən müddət ərzində nazirliyin strukturu və menecmenti müasir idarəetmənin tələblərinə uyğun olaraq yenidən qurulub və bu istiqamətdə işlər davam etdirilir. Cari ilin sentyabr ayında Qlobal Forumun Qiymətləndirmə Qrupu Azərbaycan Respublikasının vergi sistemində şəffaflığın və məlumat mübadiləsi sisteminin beynəlxalq standartlara uyğunluğu ilə bağlı ölkə hesabatını qəbul edərək yüksək reytinq verib.

F.Məmmədov sərəncamdan irəli gələn məsələlərin həlli məqsədilə «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və digər qanun layihələrinin artıq qəbul olunduğunu və dövlət başçısı tərəfindən imzalandığını diqqətə çatdırıb. Vergi Məcəlləsinə həm həcm, həm də mahiyyət baxımından olduqca ciddi dəyişikliklər edildiyini vurğulayan nazir bildirib ki, dəyişikliklərin əsas məqsədi sahibkarların, xüsusilə kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır.

Kollegiya iclasında Vergi Məcəlləsində dəyişikliklərdən irəli gələn məsələlərlə bağlı müzakirələr aparılıb, real vergi potensialının dəqiqləşdirilməsi və bu sahədə şəffaflığın təmin edilməsi, vergi bazasının genişləndirilməsi, habelə uçot və risklərin idarə edilməsi sahələrində nəzarətin gücləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi sahəsində görülən işlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mövcud vəziyyət ətraflı müzakirə edilib.

İclasda «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı Tədbirlər Planı» qəbul edilib.

Kollegiya iclasında yekun nitqi ilə çıxış edən vergilər naziri Fazil Məmmədov Tədbirlər Planında nəzərdə tutulmuş məsələlərin çevik və sürətlə icrasının təmin olunması məqsədilə vergilər nazirinin rəhbərlik etdiyi, nazir müavinlərinin və bir sıra qurum rəhbərlərinin də daxil olduğu İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı konkret tapşırıqlar verib.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır**:

**Maddə 1**. Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №- 8, I kitab, maddə 583; 2001, №-7, maddə 454, №- 9, maddə 576, №- 12, maddə 734; 2002, №- 5, maddə 249, №- 12, maddə 707; 2003, №- 8, maddə 425, №- 12, I kitab, maddə 671; 2004, №- 1, maddə 1, №-11, maddə 887, №- 12, maddə 980; 2005, №- 2, maddə 61, №- 8, maddə 688, №-12, maddə 1081; 2006, №-12, maddələr 1005, 1026; 2007, №-1, maddə 4, №- 6, maddə 597, №- 8, maddə 745, №-11, maddə 1053, №-12, maddə 1192; 2008, №- 7, maddə 602, №-11, maddə 960; 2009, №-7, maddə 506; 2011, №- 1, maddə 14, №-7, maddələr 588, 603, №- 12, maddə 1115; 2012, №- 6, maddələr 500, 513, №- 7, maddə 652, №- 9, maddə 841, №-12, maddə 1226; 2013, №- 2, maddə 91, №- 4, maddə 366, №-11, maddə 1278, №- 12, maddələr 1483, 1486, 1495; 2014, №-2, maddələr 94, 98, №- 7, maddə 770, №- 8, maddə 957, №- 10, maddə 1158, №- 12, maddə 1525; 2015, №-1, maddə 11, №- 12, maddə 1433; 2016, №- 2, I kitab, maddə 207, №- 3, maddələr 396, 402, №- 5, maddə 848, №- 6, maddələr 973, 974, №-7, maddə 1245, №-10, maddə 1603) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12.3-cü maddədə «dəyəri» sözündən sonra «, ticarət əlavəsi» sözləri əlavə edilsin;

1.2. 13-cü maddə üzrə:

1.2.1. 13.2.12-ci maddənin mətni ikinci abzas hesab edilsin və aşağıdakı məzmunda birinci abzas əlavə edilsin:

«Gəlir - malların (işlərin və xidmətlərin) təqdim edilməsi ilə bağlı əməliyyatların ümumi dəyəri, habelə satışdankənar gəlir. Vergitutma məqsədləri üçün gəlirin əldə edilmə vaxtı bu Məcəllənin 132-ci və 135-ci maddələri ilə müəyyən olunur.»;

1.2.2. aşağıdakı məzmunda 13.2.16.14-1-ci maddə əlavə edilsin:

«13.2.16.14-1. bu Məcəllənin 128-ci maddəsində nəzərdə tutulan güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlərə rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlər;»;

1.2.3. 13.2.49-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 13.2.49-1-ci və 13.2.49-2-ci maddələr əlavə edilsin:

«13.2.49-1. vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərar - gələcəkdə həyata keçiriləcək vergi tutulan əməliyyatlar üzrə vergi öhdəliklərinin və vergi qanunvericiliyinin tətbiq edilməsinin doğuracağı hüquqi nəticələrin vergi orqanı tərəfindən əvvəlcədən müəyyən edilməsini təsdiq edən bu Məcəllənin 77-1-ci maddəsində nəzərdə tutulan sənəd;

13.2.49-2. könüllü vergi açıqlaması - səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama zamanı aşkar edilməyən və vergi öhdəliyinin yaranmasına səbəb olan halların vergi ödəyiciləri tərəfindən vergi orqanlarına könüllü olaraq bəyan edilməsi;»;

1.2.4. 13.2.59-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 13.2.60 - 13.2.71-ci maddələr əlavə edilsin:

«13.2.60. kənd təsərrüfatı məhsullarının istehsalı - sənaye üsulu (o cümlədən xüsusi broyler təsərrüfatları, avtomatlaşdırılmış tövlə sistemləri və sair) da daxil olmaqla, heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların (ilkin formada, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, kimyəvi tərkibi dəyişdirilmədən, konservləşdirilmədən) əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsi;

13.2.61. kənd təsərrüfatı məhsullarının satışı - bu Məcəllənin məqsədləri üçün aşağıdakı tələblər çərçivəsində kənd təsərrüfatı məhsullarının təqdim edilməsi:

13.2.61.1. istehsal olunan (o cümlədən sənaye üsulu ilə, xüsusi broyler təsərrüfatlarında, avtomatlaşdırılmış tövlə sistemlərində və digər yerlərdə) canlılar diri şəkildə, habelə onlardan diri şəkildə olarkən əldə edilmiş məhsullar ilkin formada, heç bir kimyəvi təsirə məruz qalmadan təqdim edilməlidir;

13.2.61.2. bitkiçilik məhsulları və digər kənd təsərrüfatı məhsulları təqdim edilərkən təbiətdə olduğu ilkin formasını saxlamalı, kimyəvi tərkibi dəyişdirilməməli, konservləşdirilməməlidir;

13.2.62. pərakəndə satış - malların alıcıya satışının (təqdim edilməsinin) son istehlak məqsədi ilə və yalnız bu Məcəllədə müəyyən edilmiş qaydada qəbz və ya nəzarət-kassa aparatının çeki (sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərin tələbi ilə qaimə-faktura və ya elektron-qaimə faktura və ya elektron vergi hesab-fakturası) təqdim edilməklə həyata keçirilməsi üzrə ticarət fəaliyyəti;

13.2.63. topdansatış - malların alıcıya satışının (təqdim edilməsinin) onun sahibkarlıq fəaliyyəti məqsədləri üçün və yalnız bu Məcəllədə müəyyən edilmiş qaydada qaimə faktura və ya elektron-qaimə faktura və ya elektron vergi hesab-faktura təqdim edilməklə həyata keçirilməsi üzrə ticarət fəaliyyəti;

13.2.64. ticarət əlavəsi - malın ƏDV tətbiq edilmədən pərakəndə satış qiyməti (mallar əvəzsiz təqdim edildiyi və ya barter olunduğu halda bazar qiyməti) ilə malgöndərənə ödənilən alış qiyməti arasındakı fərq;

13.2.65. transfer qiyməti - bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən şəxslər istisna olmaqla, digər şəxslər arasında eyni şərtlər daxilində həyata keçirilən və müqayisə edilə bilən əməliyyatlarda təsbit olunan qiymətlərin cəminin, həmin əməliyyatların sayına bölünməsi yolu ilə müəyyən edilən orta qiymət, habelə bu Məcəllənin 14-1-ci maddəsinə əsasən müəyyən edilən qiymət;

13.2.66. maliyyə institutu - bu Məcəllənin məqsədləri üçün aşağıdakı fəaliyyətlərdən ən azı birini həyata keçirən vergi ödəyicisi:

13.2.66.1. bank fəaliyyəti;

13.2.66.2. həyatın yığım sığortası və (və ya) annuitet sığortası fəaliyyəti;

13.2.66.3. depozitar fəaliyyəti - bu Məcəllənin məqsədlərinə uyğun olaraq, depozitar dedikdə, fəaliyyətinin əhəmiyyətli hissəsini digər şəxslər üçün maliyyə aktivlərinin saxlanılmasını təşkil edən hüquqi şəxs nəzərdə tutulur. Müəssisənin aşağıdakı müddətlərdən daha az olan müddət ərzində digər şəxslər üçün maliyyə aktivlərinin saxlanılması və əlaqədar maliyyə xidmətlərinin göstərilməsi fəaliyyətindən əldə etdiyi mənfəət onun ümumi fəaliyyəti üzrə əldə etdiyi mənfəətin ən azı 20%-ni təşkil edirsə, maliyyə aktivlərinin saxlanılması təşkilatın fəaliyyətinin əhəmiyyətli hissəsini təşkil etmiş hesab olunur:

13.2.66.3.1. maliyyə institutunun depozitar kimi təsbit edildiyi ildən əvvəlki ilin 31 dekabrında (və ya təqvim ili olmayan hesabat dövrünün son günündə) başa çatan üç illik müddət;

13.2.66.3.2. müəssisənin fəaliyyət göstərdiyi müddət;

13.2.66.4. qiymətli kağızların (veksellər, depozitar qəbzi və sair), törəmə maliyyə alətlərinin, xarici valyutaların məzənnə, faiz dərəcəsi və indeks alətləri, qiymətli kağızlarla ticarət və ya əmtəə üzrə fyuçerslərin müştəri üçün və ya müştərinin adından aparılan ticarət fəaliyyəti;

13.2.66.5. investorların portfellərinin idarə edilməsi fəaliyyəti;

13.2.66.6. bu Məcəllənin 13.2.66.1 - 13.2.66.5-ci maddələrində qeyd olunmuş fəaliyyətlərdən hər hansı biri ilə məşğul olan şəxs tərəfindən idarə olunan hüquqi şəxsin həyata keçirdiyi fəaliyyət;

13.2.67. maliyyə institutlarında vergi monitorinqi - maliyyə institutları tərəfindən vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsi işinə nəzarət tədbirləri;

13.2.68. elektron audit - vergi ödəyicisinin elektron formatda saxlanılan maliyyə (mühasibat) məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı yaradılmaqla aparılan vergi yoxlaması;

13.2.69. vergi üstünlüyü - vergi tutulan əməliyyatın faktiki iqtisadi göstəriciləri dəyişmədən, vergilərin bu Məcəllədə müəyyən edilmiş müddətlərdə və məbləğdə ödənilməsindən yayınma;

13.2.70. vergidən yayınma sxemi - vergi üstünlüyü əldə etmək məqsədi ilə hər hansı formada bağlanılmış əqd və ya aparılmış əməliyyat;

13.2.71. vergi tutulan əməliyyatın faktiki iqtisadi göstəricisi - vergi tutulan əməliyyatın məbləği, həcmi (mal partiyasının həcmi), icra müddəti və şərtləri.»;

1.3. aşağıdakı məzmunda 14-1-ci maddə əlavə edilsin:

«Maddə 14-1. Transfer qiyməti

14-1.1. Ayrı-ayrı əməliyyatlar haqqında müqayisə edilə bilən məlumatlar mövcud olmadıqda və (və ya) rəsmi və açıq mənbələrdən malların (işlərin, xidmətlərin) bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən şəxslər istisna olmaqla, digər şəxslər arasında təqdim edilmə qiyməti barədə məlumat əldə etmək mümkün olmadıqda, transfer qiyməti aşağıdakı üsullardan biri əsasında müəyyənləşdirilir:

14-1.1.1. bu Məcəllənin 14.6.3.1-ci maddəsində göstərilən qaydada müəyyənləşdirilən sonrakı (təkrar) satış qiymətinə əsasən;

14-1.1.2. bu Məcəllənin 14.6.3.2-ci maddəsində göstərilən qaydada müəyyənləşdirilən dəyərin toplanması üsuluna əsasən;

14-1.1.3. rentabellilik üsuluna əsasən. Bu üsulla malların (işlərin, xidmətlərin) transfer qiyməti, əməliyyatın tərəfi olan şəxsin əldə etdiyi mənfəətin, onun ümumi xərclərində və ya gəlirlərində və ya aktivlərinin ümumi dəyərində xüsusi çəkisinin bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən şəxslər istisna olmaqla, digər şəxslər arasında aparılan müqayisə oluna bilən əməliyyat çərçivəsində formalaşan qiymət göstəricisi ilə müqayisəsi əsasında müəyyənləşdirilir;

14-1.1.4. mənfəətin bölgüsü üsuluna əsasən. Bu üsula əsasən malların (işlərin, xidmətlərin) transfer qiyməti eyni müəssisə qrupunun üzvü olan bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən şəxslər arasında əməliyyatlar aparıldığı zaman tərəflərdən hər birinin həmin əməliyyatlardan əldə etdiyi mənfəətin qrupun həmin əməliyyatlardan əldə etdiyi məcmu mənfəətindəki xüsusi çəkisinin bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən şəxslər istisna olmaqla, digər şəxslər arasında aparılan müqayisə oluna bilən əməliyyatlar çərçivəsində formalaşan eyni göstərici ilə müqayisəsi əsasında müəyyənləşdirilir.

14-1.2.Transfer qiyməti əsas götürülməklə vergilər aşağıdakı şəxslər arasında həyata keçirilən əməliyyatlardan hesablana bilər:

14-1.2.1. Azərbaycan Respublikasının rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər arasında;

14-1.2.2. qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə həmin qeyri-rezidentin özü və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi arasında;

14-1.2.3. Azərbaycan Respublikasının rezidenti və (və ya) qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlər arasında.

14-1.3. Bu Məcəllənin 14-1.2-ci maddəsində nəzərdə tutulan şəxslər arasında aparılan əməliyyatlar zamanı vergi ödəyicisinin təqdim etdiyi mallara (işlərə, xidmətlərə) tətbiq etdiyi qiymətlər eyni əməliyyat üçün bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən şəxslər istisna olmaqla, digər şəxslər arasında eyni şəraitdə təşəkkül tapan qiymətlərin aşağı həddindən az olduqda, vergilər transfer qiyməti ilə, yuxarı həddindən çox olduqda isə faktiki satış qiyməti ilə hesablanır.

14-1.4. Transfer qiymətləri yalnız bu Məcəllənin 16.1.4-cü maddəsi ilə müəyyən edilən həddən yuxarı olan əməliyyatlara tətbiq edilir və mənfəət (gəlir) vergisinin məqsədləri üçün istifadə edilir.

14-1.5. Alınmış malların (işlərin, xidmətlərin) alış qiyməti eyni əməliyyat üçün bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən şəxslər istisna olmaqla, digər şəxslər arasında eyni şəraitdə təşəkkül tapan ən yüksək qiymətdən çoxdursa və onların dəyəri gəlirdən çıxılan xərclərə aid edilmişdirsə, həmin malların (işlərin, xidmətlərin) dəyəri gəlirdən çıxılan xərclərə transfer qiyməti ilə aid edilir və vergilər yenidən hesablanır.

14-1.6. Transfer qiymətinin tətbiqi zamanı qiymətlərə təsir edə bilən amillər müəyyənləşdirilərkən bu Məcəllənin 14.6.1-ci maddəsinin müddəaları tətbiq edilir.

14-1.7. Vergi ödəyicisinin malların (işlərin, xidmətlərin) transfer qiymətinin bu Məcəllədə göstərilənlərdən fərqli qaydada müəyyənləşdirilməsi barədə sübutlar təqdim etmək hüququ vardır.

14-1.8. Malların (işlərin, xidmətlərin) transfer qiymətləri müəyyən edilərkən birja kotirovkaları haqqında rəsmi məlumat mənbələrindən, vergi ödəyicilərinin vergi orqanına təqdim etdiyi məlumatlardan, açıq məlumat mənbələrində yerləşdirilmiş hesabatlardakı məlumatlardan və digər müvafiq məlumatlardan istifadə edilir.

14-1.9. Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.»;

1.4. 15-ci maddə üzrə:

1.4.1. aşağıdakı məzmunda 15.1.2-1-ci maddə əlavə edilsin:

«15.1.2-1. vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsi məqsədilə vergi orqanlarına ərizə ilə müraciət etmək;»;

1.4.2. 15.1.10-cu maddədə «kommersiya (vergi)» sözləri «kommersiya və (və ya) vergi» sözləri ilə əvəz edilsin;

1.5. 16-cı maddə üzrə:

1.5.1. 16.1.4-cü maddədə «hesabatını» sözündən sonra «, habelə hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq təqvim ili ərzində bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən hər bir şəxs üzrə ümumi dəyəri 500.000 manatdan artıq olan əməliyyatlara dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada arayışı» sözləri əlavə edilsin;

1.5.2. aşağıdakı məzmunda 16.1.4-1-ci maddə əlavə edilsin:

«16.1.4-1. bu Məcəllənin 14-1.2-ci maddəsində nəzərdə tutulan şəxslərə dair məlumatları (o cümlədən onların reyestr məlumatlarını) vergi orqanının tələbi ilə təqdim etmək;»;

1.5.3. aşağıdakı məzmunda 16.1.7-1-ci maddə əlavə edilsin:

«16.1.7-1. bu Məcəllənin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növlərini «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almaqla həyata keçirmək;»;

1.5.4. 16.1.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

«16.1.8. aşağıdakı fəaliyyət növləri istisna olmaqla, pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti üzrə nağd pul hesablaşmalarını nəzarət-kassa aparatı vasitəsi ilə həyata keçirmək:

16.1.8.1. qəzet və jurnalların satışı (belə satış dövriyyəsinin ümumi dövriyyədəki payı 50 faizdən çox olduqda);

16.1.8.2. kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı;

16.1.8.3. səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən pərakəndə satış fəaliyyəti;

16.1.8.4. qiymətli kağızların və lotereya biletlərinin satışı;

16.1.8.5. elektrik enerjisi, qaz, su, isti su təchizatı və mərkəzi qızdırma sistemi obyektlərinin fəaliyyəti;»;

1.5.5.16.1.11-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

«16.1.11-1. nağdsız ödənişlərin aparılması üçün «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq POS-terminalların quraşdırılmasını və (və ya) «Elektron ticarət haqqında» Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə uyğun olaraq satıcı kimi fəaliyyət göstərdikdə, həmin Qanuna əsasən istehlakçıların elektron ödəniş etmək imkanını təmin etmək;»;

1.5.6. aşağıdakı məzmunda 16.1.11-3 - 16.1.11-8-ci maddələr əlavə edilsin:

«16.1.11-3. vergi orqanının tələbinə əsasən maliyyə institutlarında vergi monitorinqinin aparılması ilə bağlı vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən həyata keçirilən maliyyə əməliyyatları barədə sənədləri və məlumatları vergi orqanlarına və onların vəzifəli şəxslərinə təqdim etmək;

16.1.11-4. maliyyə institutları tərəfindən hüquqi və fiziki şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə, Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsini və bu Məcəllənin 76-1-ci maddəsinə uyğun olaraq maliyyə institutları tərəfindən təqdim edilməsi nəzərdə tutulan məlumatların əks olunduğu forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən elektron hesabatların təqdim edilməsini təmin etmək;

16.1.11-5. bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarının vəzifəli şəxslərinə əmlakın siyahıya alınmasına, həmin əmlakın məsul saxlamaya qoyulması üçün götürülməsinə zəruri şərait yaratmaq, habelə onların bu sahədə qanuni fəaliyyətlərinə maneçilik törətməmək;

16.1.11-6. sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı bu Məcəllədə nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura vermək;

16.1.11-7. pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti zamanı malların (işlərin, xidmətlərin) alıcılarına onların tələbinə əsasən nəzarət-kassa aparatının çeki ilə yanaşı, qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-faktura təqdim etmək;

16.1.11-8. qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların yalnız nağdsız qaydada həyata keçirilməsini təmin etmək;»;

1.6. aşağıdakı məzmunda 17.6-cı maddə əlavə edilsin:

«17.6. Bu Məcəllənin 149.1.3-1-ci maddəsinə uyğun olaraq təyin olunan vergi agenti təyin olunduqdan sonra 30 gün ərzində vergi orqanlarına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada arayış təqdim edir.»;

1.7. 18-ci maddə üzrə:

1.7.1. 18.2.1-ci maddədə «əmlakında» sözündən sonra «(nizamnamə kapitalında)» sözləri əlavə edilsin;

1.7.2. aşağıdakı məzmunda 18.3-cü maddə əlavə edilsin:

«18.3. Bu maddənin məqsədləri üçün bir şəxs digər şəxsə o halda nəzarət etmiş hesab olunur ki, həmin şəxs digər şəxsin fəaliyyətini məhdudlaşdırmaq və ya istiqamətləndirmək imkanına malikdir.»;

1.8. 23-cü maddə üzrə:

1.8.1. aşağıdakı məzmunda 23.1.2-1-ci maddə əlavə edilsin:

«23.1.2-1. vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən şəxslərdən həmin müqavilənin tələblərindən irəli gələn sənədləri və məlumatları elektron və (və ya) kağız daşıyıcılarda tələb etmək;»;

1.8.2. aşağıdakı məzmunda 23.1.6-1-ci maddə əlavə edilsin:

«23.1.6-1. səyyar vergi yoxlamaları zamanı əsas məqsədi vergi üstünlüyü əldə etmək olan vergidən yayınma sxemi aşkar etdikdə faktiki iqtisadi göstərici əsas götürülməklə vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin hesablanmasını təmin etmək;»;

1.8.3. 23.1.15-1-ci maddədə «dövlət büdcəsinə alınması» sözlərindən sonra «, yaxud hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinin təmin olunması məqsədi ilə vergi ödəyicisinin siyahıya alınmış əmlakının ixtisaslaşdırılmış açıq hərraclarda satılması» sözləri əlavə edilsin;

1.8.4. aşağıdakı məzmunda 23.1.15-5-ci maddə əlavə edilsin:

«23.1.15-5. maliyyə institutlarında vergi monitorinqini aparmaq və bununla bağlı maliyyə institutlarından vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirilən maliyyə əməliyyatları barədə sənədləri və məlumatları elektron və (və ya) kağız daşıyıcılarda almaq;»;

1.9. 24-cü maddə üzrə:

1.9.1. aşağıdakı məzmunda 24.0.1-1-ci maddə əlavə edilsin:

«24.0.1-1. bu Məcəllənin 15.1.2-1-ci maddəsinə uyğun olaraq ərizə ilə müraciət etmiş vergi ödəyicilərinin həmin ərizədə göstərilən əməliyyatı ilə bağlı vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərar qəbul etməyə;»;

1.9.2. aşağıdakı məzmunda 24.0.6-1-ci maddə əlavə edilsin:

«24.0.6-1. bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslərə bu Məcəllənin 220.10-cu maddəsində nəzərdə tutulmuş fəaliyyət növləri ilə məşğul olmaq üçün «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» verməyə;»;

1.9.3.aşağıdakı məzmunda 24.0.7-2-ci maddə əlavə edilsin:

«24.0.7-2. bu Məcəllənin 165.4-cü maddəsinə uyğun olaraq ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada vergi ödəyicilərinin qeydiyyatını aparmağa, satıcı kimi qeydiyyata alınmış vergi ödəyicilərinin müraciəti əsasında onları müvafiq proqram təminatı və texniki avadanlıqla təchiz etməyə;»;

1.9.4. 24.0.8-ci maddədə «vergi və kommersiya sirrinin qorunması» sözləri «vergi, kommersiya və bank sirrinin qorunması» sözləri ilə əvəz edilsin;

1.10. 30-cu maddə üzrə:

1.10.1. maddənin adında «Kommersiya (vergi)» sözləri «Kommersiya və (və ya) vergi» sözləri ilə əvəz edilsin;

1.10.2. 30.2-ci maddədə «kommersiya (vergi)» sözləri «vergi» sözü ilə əvəz edilsin;

1.10.3. 30.3-cü maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

«Kommersiya sirri haqqında» Azərbaycan Respublikası Qanununa əsasən vergi ödəyicisinin kommersiya sirrini təşkil edən məlumatlar və ya vergi sirri vergi orqanları, onların vəzifəli şəxsləri tərəfindən qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, açılmamalıdır.»;

1.10.4. 30.3-cü maddənin ikinci abzasında (hər iki halda), 30.4-cü (hər iki halda), 30.5-ci və 30.7-ci maddələrdə «kommersiya (vergi)» sözləri «kommersiya və (və ya) vergi» sözləri ilə əvəz edilsin;

1.11. 33.8.4.1-ci və 33.8.5.1-ci maddələrdə «sənədi və» sözlərindən sonra «onun təsisçisi (təsisçiləri) olan xarici hüquqi şəxsin nizamnamə kapitalında birbaşa və ya dolayı yolla paya malik fiziki şəxslər barədə məlumatın da daxil olduğu» sözləri əlavə edilsin;

1.12. 34.2-ci maddədə «2» rəqəmi «1» rəqəmi ilə əvəz edilsin;

1.13. aşağıdakı məzmunda 35.2-1-ci maddə əlavə edilsin:

«35.2-1. Banklar hüquqi və fiziki şəxslərə hesab açdıqda və ya maliyyə xidmətləri göstərdikdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsini təmin edirlər.»;

1.14. 36-cı maddə üzrə:

1.14.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

**«Vergi yoxlamaları və maliyyə institutlarında vergi monitorinqi»;**

1.14.2. aşağıdakı məzmunda 36.7-ci və 36.8-ci maddələr əlavə edilsin:

«36.7. Vergi orqanı vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsini təmin etmək məqsədilə maliyyə institutlarında vergi monitorinqi apara bilər.

36.8. Maliyyə institutlarında vergi monitorinqinin aparılması, nəticələrinin rəsmiləşdirilməsi, sənədlərin tələb edilməsi və materiallarına baxılmanın nəticələri üzrə qərarın çıxarılması, o cümlədən maliyyə sanksiyasının tətbiqi bu Məcəllənin 36-49-cu maddələrində nəzərdə tutulan qaydada həyata keçirilir.»;

1.15. 37-ci maddə üzrə:

1.15.1. 37.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

«37.2. Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən bu Məcəllənin 72-ci maddəsində nəzərdə tutulmuş vergi bəyannaməsinin vergi orqanına təqdim edildiyi vaxtdan 30 iş günü müddətində keçirilir. Bu müddət başa çatdıqdan sonra həmin bəyannamə, habelə bu Məcəllənin 37.2-1-ci maddəsində göstərilən bildiriş üzrə verilmiş dəqiqləşdirilmiş bəyannamə üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz.»;

1.15.2. aşağıdakı məzmunda 37.2-1-ci maddə əlavə edilsin:

«37.2-1. Kameral vergi yoxlaması başa çatdıqdan sonra vergi orqanı verginin hesablanması üçün əlavə sənəd və ya mənbəyi məlum olan digər məlumat aşkar etdikdə, vergi ödəyicisinə 5 iş günü müddətində bu Məcəllənin 72.5-ci maddəsində nəzərdə tutulmuş dəqiqləşdirilmiş hesabatın 10 iş günü müddətində təqdim edilməsi barədə bildiriş göndərir.»;

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

1.15.3. 37.4-cü maddənin birinci cümləsində «zamanı» sözü «nəticəsində» sözü ilə, «5 gün» sözləri «5 iş günü» sözləri ilə əvəz edilsin;

1.16. 38-ci maddə üzrə:

1.16.1. 38.1-ci maddədə «Səyyar vergi yoxlaması» sözlərindən sonra «, o cümlədən elektron audit» sözləri əlavə edilsin;

1.16.2. 38.2-ci maddənin ikinci abzasında «ildə» sözü «təqvim ili ərzində» sözləri ilə əvəz edilsin;

1.16.3. aşağıdakı məzmunda 38.8-ci maddə əlavə edilsin:

«38.8. Elektron auditin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.«;

1.17. 42-ci maddə üzrə:

1.17.1. 42.1-ci maddəyə üçüncü abzas əlavə edilsin:

«Operativ vergi nəzarəti tədbirlərinin keçirilməsi zamanı sənədlərin və ya elektron faylların verilməsi barədə tələb yönəldilən şəxs həmin sənədləri və ya elektron faylları 1 iş günü ərzində təqdim etməlidir.»;

1.17.2. 42.4-cü maddədə «vergi ödəyicisi tərəfindən 20 gün» sözləri «10 iş günü» sözləri ilə əvəz edilin;

1.18. 50.1.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 50.1.10 - 50.1.13-cü maddələr əlavə edilsin:

«50.1.10. bu Məcəllənin 221.8-ci maddəsinə əsasən «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almayan vergi ödəyicilərinin aşkar edilməsi;

50.1.11. nağdsız hesablaşmaların həyata keçirilməsi ilə bağlı qanunla müəyyən olunmuş tələblərə əməl olunmasına nəzarət edilməsi;

50.1.12. pul vəsaitinin uçotdan gizlədilməsi və ya uçota alınmaması hallarına nəzarət edilməsi;

50.1.13 malların bu Məcəllə ilə müəyyən edilən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-faktura əsasında alınmasına nəzarət edilməsi.»;

1.19. 53.8-ci maddədə «həmin hərəkətə görə» sözləri «, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında xarici dövlətlərdən daxil olmuş məlumat mübadiləsi üzrə sorğuların cavablandırılması üçün tələb olunan məlumat və sənədlərin müəyyən edilən müddətdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə görə vergi ödəyicisi kimi qeydiyyatda olmayan şəxslərin» sözləri ilə əvəz edilsin;

1.20. aşağıdakı məzmunda 55.1.3-1-ci maddə əlavə edilsin:

«55.1.3-1. vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunun vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərara əsaslanmaqla və ya onun icrası nəticəsində törədilməsi;»;

1.21. 57-ci maddə üzrə:

1.21.1. 57.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

«57.3. Bu Məcəllənin 23.1.2-ci və 23.1.2-1-ci maddələrində göstərilən sənədlərin (o cümlədən elektron formatda məlumatların) müəyyən edilmiş müddətlərdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə, o cümlədən vergi orqanlarının bu Məcəllənin 42.4-cü maddəsinə əsasən edilmiş müraciətinin həmin maddədə göstərilən müddətdə icra edilməməsinə, habelə sənədlərin və ya məlumatların bu Məcəllənin 71.4-cü maddəsi ilə müəyyən edilmiş müddətdə üzrlü səbəb olmadan saxlanılmamasına görə vergi ödəyicisinə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.»;

1.21.2. aşağıdakı məzmunda 57.4-cü maddə əlavə edilsin:

«57.4. Bu Məcəllənin 16.1.4-cü maddəsində göstərilən arayışı müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 500 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.»;

1.22. 58-ci maddə üzrə:

1.22.1. 58.7-ci maddədə «Nağd» sözü (birinci halda) «Bu Məcəllənin 13.2.63-cü maddəsində nəzərdə tutulmuş ticarət fəaliyyətinin həyata keçirilməsi halı istisna olmaqla, nağd» sözləri ilə əvəz edilsin;

1.22.2. aşağıdakı məzmunda 58.7-1-ci maddə əlavə edilsin:

«58.7-1. Qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların nağd qaydada həyata keçirilməsinə görə malı (işi, xidməti) təqdim edən vergi ödəyicisinə qanunvericilik pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.»;

1.22.3. 58.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

«58.8. Səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinə məxsus pul vəsaitlərinin uçotdan yayındırılmasına görə, habelə vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-faktura, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsi, həmin mallar vergi ödəyicisinin özü tərəfindən istehsal edildikdə isə bu Məcəllənin 130-1-ci maddəsi ilə müəyyən edilmiş qaydada tərtib edilən sənədlərdən ən azı biri olmadıqda:

58.8.1 pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına görə - 1000 manatdan çox olan hissəsinin 5 faizi, il ərzində belə hala təkrar yol verdikdə 1000 manatdan çox olan hissəsinin 10 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir;

58.8.2. malların alışını və ya mədaxilini təsdiq edən bu Məcəllənin 58.8-ci maddəsində nəzərdə tutulan sənədlərdən ən azı biri olmadıqda - alıcıya təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında;»;

1.22.4. aşağıdakı məzmunda 58.12-ci maddə əlavə edilsin:

«58.12. Vergi orqanından bu Məcəllənin 221.8-ci maddəsinə əsasən «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə vergi ödəyicisinə:

58.12.1. təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında;

58.12.2. təqvim ili ərzində belə hallara iki və daha çox dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.»;

1.23. 60-cı maddə üzrə:

1.23.1. maddəninadı aşağıdakı redaksiyada verilsin:

**«Kredit təşkilatlarına və maliyyə institutlarına tətbiq edilən maliyyə sanksiyaları»;**

1.23.2. 60.1.4-cü maddə ləğv edilsin;

1.23.3. aşağıdakı məzmunda 60.3-cü maddə əlavə edilsin:

«60.3. Maliyyə institutlarına aşağıdakı maliyyə sanksiyaları tətbiq edilir:

60.3.1. maliyyə institutları tərəfindən hüquqi və fiziki şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə, Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməməsinə görə - hər belə hesab və ya əməliyyat üçün 100 manat məbləğində;

60.3.2. bu Məcəllənin 16.1.11-4-cü maddəsində göstərilən elektron hesabatın müəyyən edilmiş qaydada və müddətdə təqdim edilməməsinə görə - 1000 manat məbləğində;

60.3.3. bu Məcəllənin 76-1-ci maddəsinin tələblərini icra etməməyə görə - aparılmış əməliyyatın ümumi məbləğinin 30 faizi miqdarında, bu hesablar üzrə əməliyyat aparılmadıqda isə, hər belə hesab üçün 400 manat məbləğində;

60.3.4. vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinin pozulması həmin müqavilələrin tərəfi olan digər dövlətin səlahiyyətli orqanının bildirişinə əsasən aşkar olunduqda - hər belə hesab üçün 100 manat məbləğində.»;

1.24. aşağıdakı məzmunda 71-1-ci maddə əlavə edilsin:

**«Maddə 71-1. Elektron qaimə-fakturaları**

71-1.1. Bu Məcəllə ilə müəyyən edilən hallarda fərdi sahibkarlara və hüquqi şəxslərə malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs onlara elektron qaimə-faktura verir. Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan şəxslərin elektron qaimə-faktura vermək hüququ yoxdur.

71-1.2. Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.»;

1.25. aşağıdakı məzmunda 72.5-1-ci və 72.5-2-ci maddələr əlavə edilsin:

«72.5-1. Vergi ödəyiciləri tərəfindən könüllü vergi açıqlaması edildiyi halda bu barədə vergi orqanına forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hesabat təqdim edilir.

72.5-2. Könüllü vergi açıqlaması edildiyi halda təqdim edilmiş hesabat üzrə vergi ödəyicisi tərəfindən yalnız hesablanmış vergi məbləği büdcəyə ödənilir.»;

1.26. 76-cı maddə üzrə:

1.26.1. 76.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

«Vergi orqanları vergi nəzarəti zamanı kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə yazılı bildiriş göndərməklə, həmin bankın xidmət etdiyi vergi ödəyicisinin (şəxsin) bank hesabı və əməliyyatları barədə məlumat almaq hüququna malikdir.;

1.26.2. 76.2-1-ci maddə ləğv edilsin;

1.27. aşağıdakı məzmunda 76-1-ci maddə əlavə edilsin:

**«Maddə 76-1. Maliyyə institutları tərəfindən məlumatların verilməsi**

Maliyyə institutları vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, bu dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hədlərdə və qaydada müvafiq icra hakimiyyəti orqanı vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına təqdim etməlidir.»;

1.28. 77.1-ci maddədə «vergini (o cümlədən cari vergi ödəmələrini)» sözlərindən sonra «, hesablanmış faizləri və tətbiq edilmiş maliyyə sanksiyalarını» sözləri əlavə edilsin;

1.29. aşağıdakı məzmunda 77-1-ci maddə əlavə edilsin:

**«Maddə 77-1. Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərar**

77-1.1. Vergi ödəyicisi vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın (bundan sonra bu maddənin məqsədləri üçün - qərar) qəbul edilməsi məqsədilə vergi orqanına «İnzibati icraat haqqında» Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada ərizə təqdim edir.

77-1.2. Ərizəyə aşağıdakılar əlavə olunur:

77-1.2.1. barəsində qərarın qəbul edilməsi tələb edilən vergi tutulan əməliyyata aid sənədlər;

77-1.2.2. vergi tutulan əməliyyatlar üzrə vergi öhdəliklərinin və vergi qanunvericiliyinin tətbiq edilməsinin doğuracağı hüquqi nəticələrə dair vergi ödəyicisinin qeydləri;

77-1.2.3. qərarın qəbulu üçün zəruri hesab edilən digər məlumatlar.

77-1.3. Ərizəyə əlavə olunmuş sənədlər dövlət dilində olmalıdır. Xarici dildə tərtib olunmuş sənədlərin əsli dövlət dilinə rəsmi təsdiq edilmiş tərcümə ilə müşayiət olunmalıdır.

77-1.4. Qərar bu Məcəllənin 77-1.2-ci və 77-1.3-cü maddələrində nəzərdə tutulan sənədlər və məlumatlar təqdim edildikdən sonra 30 iş günü müddətində qəbul edilir.

77-1.5. Vergi orqanı ərizənin və ona əlavə edilmiş sənədlərin 77-1.1 - 77-1.3-cü maddələrinin tələblərinə uyğunluğunu yoxlayır. Ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və qərarın qəbul edilməsi üçün imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 10 iş günündən gec olmayaraq vergi orqanı onların aradan qaldırılması barədə məlumatı vergi ödəyicisinə bildirməlidir.

77-1.6. Vergi ödəyicisi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 iş günü ərzində aradan qaldırmalıdır. Bu zaman qərarın qəbul edilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət qərarın qəbul edilməsi müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə vergi ödəyicisinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

77-1.7. Qərar vergi orqanı tərəfindən hər bir vergi ödəyicisinə və hər bir vergi tutulan əməliyyata münasibətdə ayrılıqda qəbul olunur, vergi orqanının rəhbərinin imzası və möhürlə təsdiq olunur və barəsində qərar qəbul edilən əməliyyatla bağlı münasibətləri tənzimləyən normativ hüquqi aktlarda əməliyyat baş tutanadək dəyişiklik baş verdiyi hallar istisna olmaqla 3 il müddətində məcburi hüquqi qüvvəyə malik olur.

77-1.8. Vergi ödəyicisi tərəfindən təqdim olunmuş ərizə və ona əlavə edilmiş sənədlərdə çatışmazlıqlar olmadıqda və ya aşkar edilmiş çatışmazlıqlar bu Məcəllənin 77-1.6-cı maddəsində müəyyən olunmuş vaxtda aradan qaldırıldıqda, vergi orqanı «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş dövlət rüsumunu ödəmək vəzifəsi barədə vergi ödəyicisinə şifahi və ya məktub vasitəsilə yazılı məlumat verir.

77-1.9. Qərarın qəbul edilməsi üçün dövlət rüsumu bu Məcəllənin 77-1.8-ci maddəsinə uyğun olaraq, vergi orqanının verdiyi məlumat alındığı tarixdən 3 iş günü ərzində vergi ödəyicisi tərəfindən ödənilir və ödənişi təsdiq edən sənəd vergi orqanına təqdim olunur.

77-1.10. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd vergi orqanına təqdim edildikdən sonra bu Məcəllə ilə müəyyən edilmiş müddətdə qərar qəbul edilərək vergi ödəyicisinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

77-1.11. Qərarın icrası yalnız ərizədə qeyd olunan əməliyyat üzrə vergi orqanı və qərarda qeyd olunan əməliyyatı həyata keçirəcək vergi ödəyicisi üçün məcburi hüquqi qüvvəyə malikdir, bir şərtlə ki, vergi ödəyicisi tərəfindən həmin əməliyyat həyata keçirilmiş olsun.

77-1.12. Barəsində qərar qəbul edilmiş əməliyyatın icrası vergi ödəyicisi üçün məcburi xarakter daşımır.

77-1.13. Aşağıdakı hallarda vergi orqanı tərəfindən qərarın qəbul edilməsindən imtina edilir:

77-1.13.1. ərizədə və ona əlavə olunmuş sənədlərdə qanuna uyğun olmayan məlumatlar olduqda (bu Məcəllənin 77-1.5-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş hal istisna olmaqla);

77-1.13.2. ərizədə qeyd olunan əməliyyat üzrə bu Məcəlləyə uyğun olaraq vergi öhdəliyinin müəyyən edilməsinə dair vergi orqanının qərarı olduqda və bu əməliyyat üzrə göstəricilərdə hər hansı dəyişiklik baş vermədikdə;

77-1.13.3. ərizədə qeyd olunan əməliyyat artıq baş tutmuş olduqda və ya bu əməliyyatla bağlı vergi orqanının qərarı və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

77-1.13.4. barəsində qərar qəbul edilməsi üçün müraciət edilmiş əməliyyat üzrə vergi ödəyicisinin vergidən yayınma sxemi yaratmaqla, vergi üstünlüyü əldə etmək məqsədi daşıdığı vergi orqanı tərəfindən müəyyən edildikdə;

77-1.13.5. barəsində qərar qəbul edilməsi nəzərdə tutulan əməliyyatın dəyəri 10.000.000 (on milyon) manatdan aşağı olduqda;

77-1.13.6. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd bu Məcəllənin 77-1.9-cu maddəsində göstərilən müddətdə vergi orqanına təqdim edilmədikdə;

77-1.13.7. vergi ödəyicisi tərəfindən qərarın qəbul olunması üçün müraciət zamanı bu Məcəllə ilə müəyyən olunmuş tələblərə əməl edilmədikdə, o cümlədən vergi öhdəliyinin və vergi qanunvericiliyinin tətbiq edilməsinin doğuracağı hüquqi nəticələrin müəyyən edilməsi ilə bağlı tələb olunan sənədlər və məlumatlar müraciətə əlavə olunmadıqda və ya əlavə olunmuş sənədlər və məlumatlar vergi öhdəliyinin və vergi qanunvericiliyinin tətbiq edilməsinin doğuracağı hüquqi nəticələrin müəyyən edilməsi üçün kifayət etmədikdə;

77-1.13.8. barəsində qərar qəbul edilməsi nəzərdə tutulan əməliyyat üzrə vergi öhdəliyinin və vergi qanunvericiliyinin tətbiq edilməsinin doğuracağı hüquqi nəticələrin müəyyən edilməsi vergi orqanının səlahiyyətlərinə aid olmadıqda.

77-1.14. Barəsində qərar qəbul edilən əməliyyatla bağlı münasibətləri tənzimləyən normativ hüquqi aktlarda əməliyyat baş tutanadək dəyişiklik baş verərsə, vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi haqqında vergi orqanının qərarının hüquqi qüvvəsi olmur.

77-1.15. Vergi ödəyicisi vergi orqanı tərəfindən bu maddəyə uyğun olaraq qəbul edilmiş qərardan, habelə həmin qərarın qəbul edilməsi ilə bağlı imtinadan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.»;

1.30. 83-cü maddə üzrə:

1.30.1. 83.3-cü maddədə «kameral» sözündən sonra «(bu Məcəllənin 37.2-ci maddəsində göstərilən hal üzrə kameral vergi yoxlaması ilə hesablama istisna olmaqla)» sözləri əlavə edilsin;

1.30.2. 83.4-cü maddədə «5 gün» sözləri «5 iş günü» sözləri ilə əvəz edilsin;

1.31. 89.10-cu maddədə «bu siyahı» sözlərindən sonra «əmlakın fotoşəkli ilə birlikdə» sözləri əlavə edilsin;

1.32. 90-cı maddə üzrə:

1.32.1. 90.1-ci maddədə «vergi öhdəliyinin icrasının» sözləri «vergilər, faizlər və maliyyə sanksiyaları üzrə dövlət büdcəsinə yaranmış borclarının ödənilməsinin» sözləri ilə, «satılması barədə» sözləri «satılması haqqında qərar qəbul olunması üçün» sözləri ilə əvəz edilsin;

1.32.2. 90.3-cü maddə üzrə:

1.32.2.1. birinci abzasda «qərarı» sözündən sonra «qanuni» sözü əlavə edilsin;

1.32.2.2. ikinci, üçüncü, dördüncü və beşinci abzaslar müvafiq olaraq üçüncü, dördüncü, beşinci və altıncı abzaslar hesab edilsin və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

«Vergi ödəyicisinin siyahıya alınmış əmlakı icra məmurunun sifarişinə əsasən elektron hərrac vasitəsi ilə də satıla bilər. Elektron hərracın təşkili və keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur.»;

1.32.2.3. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

«Müvafiq icra hakimiyyəti orqanı vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışından əldə olunan vəsait barədə, habelə siyahıya alınmış əmlakın hərracda (o cümlədən elektron hərracda) və ya ticarət şəbəkələrində (o cümlədən satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satılması üçün icra məmurları tərəfindən edilmiş sifarişlər barədə rüblük məlumatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanına elektron şəkildə təqdim edir.»;

1.32.3. 90.3.3.1-ci maddədə «məhkəmənin qanuni qüvvəyə minmiş qərarı» sözləri «Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq məhkəmənin qanuni qüvvəyə minmiş qərarının surəti» sözləri ilə əvəz edilsin;

1.32.4. 90.3.3.2-ci maddədə «sənədi» sözü «sənədinin surəti» sözləri ilə əvəz edilsin;

1.32.5. aşağıdakı məzmunda 90.3.3.2-1-ci maddə əlavə edilsin:

«90.3.3.2-1. əmlakın fotoşəkli, yerləşdiyi ünvan barədə məlumat;»;

1.32.6. 90.3.3.6-cı maddədə «sənədlər» sözü «sənədlərin surəti» sözləri ilə əvəz edilsin;

1.32.7. 90.3.4-cü maddədə «30» rəqəmi «20» rəqəmi ilə, «7» rəqəmi «5» rəqəmi ilə əvəz edilsin, «kütləvi informasiya vasitələrində» sözlərindən sonra «, o cümlədən internet saytlarında və sosial şəbəkələrdə» sözləri əlavə edilsin;

1.32.8. 90.3.5.1-ci maddədə «siyahısı, « sözündən sonra «fotoşəkli, « sözü əlavə edilsin;

1.32.9. 90.3.8-ci maddədə «sifarişə» sözü «ərizəyə» sözü ilə əvəz edilsin;

1.32.10. 90.3.8.2-ci və 90.3.8.3-cü maddələrində «notariat qaydasında təsdiq edilmiş» sözləri çıxarılsın;

1.32.11. 90.3.20.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

«90.3.20.4. birinci hərrac baş tutmadıqda və ya siyahı üzrə ayrı-ayrılıqda əmlakın satışı baş tutmadıqda, hər növbəti hərraca 10 gün qalmış kütləvi informasiya vasitələrində, o cümlədən internet saytlarında və sosial şəbəkələrdə hərracla bağlı 90.3.5-ci maddədə qeyd olunan elan verilir. İkinci hərracda qiymət birinci hərracda satılmayan əmlakın və ya onun ayrılıqda siyahı üzrə satılmayan hissəsinin ilkin satış qiymətinin 20 faizi, üçüncü hərracda isə 40 faizinədək aşağı salına bilər;»;

1.32.12. 90.3.20.5-ci maddədə «ikinci və» sözləri çıxarılsın;

1.32.13. 90.3-1-ci maddədə «şəbəkələrində» sözündən sonra «(o cümlədən satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində)» sözləri əlavə edilsin;

1.32.14. aşağıdakı məzmunda 90.3-2 - 90.3-4-cü maddələr əlavə edilsin:

«90.3-2. Hərracın təşkilatçısının rəsmi internet saytı olmalı, hərracın keçirilməsi barədə elan, habelə hərraca çıxarılan əmlak barəsində məlumatlar ətraflı şəkildə həmin internet saytında yerləşdirilməlidir.

90.3-3. Hərracın təşkilatçısı (o cümlədən elektron hərracın təşkilatçısı) keçirilmiş hərraclar, başa çatmış və ya baş tutmamış hərraclar, habelə siyahıya alınmış əmlakın satışından əldə olunan vəsaitlər barədə aylıq məlumatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada hər ay başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanına təqdim edir.

90.3-4. Ticarət şəbəkələri (o cümlədən satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələri) satışa çıxarılmış əmlaklar, satışı təmin edilmiş və ya satışı mümkün olmadığı üçün geri qaytarılmış əmlaklar, habelə siyahıya alınmış əmlakın satışından əldə olunan vəsaitlər barədə aylıq məlumatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada hər ay başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanına təqdim edir.»;

1.32.15. 90.4-cü maddənin birinci abzasda «hesablanmış vergilərin, faizlərin və maliyyə sanksiyalarının» sözləri «vergilər, faizlər və maliyyə sanksiyaları üzrə dövlət büdcəsinə yaranmış borcların» sözləri əlavə edilsin;

1.33. 101.5-ci maddəaşağıdakı redaksiyada verilsin:

«101.5. İdman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlardan (mükafatlardan)iştirakla bağlı ödənilən pul vəsaiti (pul qoyuluşu) çıxılmaqla qalan məbləğdən(Azərbaycan Respublikasının hüdudlarından kənarda təşkil edilən mərc oyunlarından, yarışlardan və müsabiqələrdən əldə edilən nağd pul vəsaiti istisna olmaqla) 10 faiz dərəcə ilə vergi tutulur.»;

1.34. 102-ci maddə üzrə:

1.34.1. 102.1.13-cü maddə ləğv edilsin;

1.34.2. 102.1.22-ci maddədə «3 (üç)» sözləri «7 (yeddi)» sözləri ilə əvəz edilsin;

1.35. 106.1.5-ci maddədə «maliyyə bazarlarına nəzarət orqanının» sözlərindən sonra «, icbari tibbi sığorta xidmətləri göstərən müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun, dövlət adından yaradılan səhiyyə (tibb) müəssisələrinin» sözləri əlavə edilsin;

1.36. aşağıdakı məzmunda 109.8-ci maddə əlavə edilsin:

«109.8. Nəzarət-kassa aparatının çeki və ya qəbz malların alınması ilə bağlı çəkilən xərcləri təsdiq edən sənəd hesab olunmur.»;

1.37. 114-cü maddə üzrə:

1.37.1. 114.3.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

«114.3.2. maşınlar və avadanlıq - 20%-dək;»;

1.37.2. aşağıdakı məzmunda 114.3.2-1-ci maddə əlavə edilsin:

«114.3.2-1. yüksək texnologiyalar məhsulu olan hesablama texnikası üzrə - 25 faizədək;»

1.37.3. aşağıdakı məzmunda 114.10-cu maddə əlavə edilsin:

«114.10. Bu maddənin digər müddəalarından asılı olmayaraq, dövlət müəssisələrinə dövlət büdcəsinin investisiya xərcləri hesabına ayrılmış vəsaitlər hesabına alınan və ya quraşdırılan aktivlərin, bu Məcəllənin 114.3-cü maddəsi ilə müəyyən olunmuş illik amortizasiya normalarına uyğun hesablanmış amortizasiyanın yalnız 40 faizi gəlirdən çıxılır.»;

1.38. 125-ci maddə üzrə:

1.38.1. 125.1.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

«125.1.8. idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlardan (mükafatlardan) iştirakla bağlı ödənilən pul vəsaiti (pul qoyuluşu) çıxılmaqla qalan məbləğdən - bu Məcəllənin 101.5-cı maddəsinə uyğun olaraq.»;

1.38.2. 125.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 125.1.9-cu əlavə edilsin:

*Ardı 6-cı səh.*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 5-ci səh.*

«125.1.9. bu Məcəllənin 13.2.16.14-1-ci maddəsində göstərilən ödəmələr - 10 faiz.»;

1.38.3. aşağıdakı məzmunda 125.1-1-ci maddə əlavə edilsin:

«125.1-1. Azərbaycan Respublikasının rezidentləri tərəfindən qeyri-rezident şəxslərə məxsus elektron pul kisəsində yaradılan hesaba pul köçürülərkən, əməliyyatı həyata keçirən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru həmin rezidentdən köçürülən məbləğin 10 faizi miqdarında ödəmə mənbəyində vergi tutur.»;

1.39. 128-ci maddə üzrə:

1.39.1. 128.2-ci maddədə «və ya maliyyə məlumatını» sözləri «və maliyyə məlumatını» sözləri ilə əvəz edilsin;

1.39.2. aşağıdakı məzmunda 128.3-cü maddə əlavə edilsin:

«128.3. Hər il üçün güzəştli vergi tutulan ölkələrin və ya ərazilərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.»;

1.40. aşağıdakı məzmunda 130.1-1-ci maddə əlavə edilsin:

«130.1-1. İqtisadi fəaliyyət sahələri üzrə vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.»;

1.41. aşağıdakı məzmunda 149.1.3-1-ci maddə əlavə edilsin:

«149.1.3-1. bu Məcəllənin 149.1.3-cü maddəsində göstərilən qeyri-rezident şəxsin təyin etdiyi vergi agenti;»;

1.42. 150-ci maddə üzrə:

1.42.1. 150.1.9-cu maddədə «yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi» sözlərindən əvvəl «torpaq, « sözü əlavə edilsin;

1.42.2. 150.1.10-cu maddədə «uduşlar» sözü «, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində uduşlar (mükafatlar)» sözləri ilə əvəz edilsin;

1.42.3. 150.1.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 150.1.11-ci və 150.1.12-ci maddələr əlavə edilsin:

«150.1.11. lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) rezident hüquqi şəxs və fərdi sahibkarlar tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər, həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə, bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru;

150.1.12. hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru.»;

1.42.4. 150.3-2-ci maddədə «150.1.10-cu maddəsində» sözləri «150.1.10-cu və 150.1.11-ci maddələrində» sözləri ilə əvəz edilsin.

1.42.5. aşağıdakı məzmunda 150.3-3-cü maddə əlavə edilsin:

«150.3-3. bu Məcəllənin 150.1.12-ci maddəsində göstərilən şəxslər bu Məcəllənin 220.12-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergini hesablamağa, vəsaiti alan şəxsin bank hesabından tutmağa və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə bəyannaməni vergi orqanına verməyə borcludurlar.».

1.43. 153-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«Azərbaycan Respublikası ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı əlavə dəyər vergisi ticarət əlavəsindən hesablanan verginin məbləğidir.»;

1.44. 159.1-ci maddədə «xidmətlərin göstərilməsi» sözlərindən sonra «, Azərbaycan Respublikası ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı tətbiq edilən ticarət əlavəsi» sözləri əlavə edilsin;

1.45. 164-cü maddə üzrə:

1.45.1. 164.1.27-ci maddədə «2016-cı il yanvarın 1-dən 1 il» sözləri «2017-ci il yanvarın 1-dən 3 il» sözləri ilə əvəz edilsin;

1.45.2. 164.1.35-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 164.1.36-cı və 164.1.37-ci maddələr əlavə edilsin:

164.1.36. ödəmə qabiliyyətini itirmiş bankların restrukturizasiya və sağlamlaşdırma tədbirləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi - 2017-ci il yanvarın 1-dən 3 il müddətinə;

164.1.37. quş ətinin satışı - 2017-ci il yanvarın 1-dən 3 il müddətinə.»;

1.46. aşağıdakı məzmunda 165.4-cü maddə əlavə edilsin:

«165.4. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada təşkil edilən ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış, istehsal yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş ƏDV-nin qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.»;

1.47. 168.1.5-ci maddənin doqquzuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

«elektron ticarətin satıcıları (təchizatçıları) tərəfindən işlərin və xidmətlərin təqdim edilməsi, habelə elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin keçirilməsi.»;

1.48. 169.1-ci maddədə «xidmət göstərirsə və ya iş görürsə» sözlərindən sonra «(o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi)» sözləri əlavə edilsin;

1.49. 169.3-cü maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

«ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə görə vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən bu maddə ilə müəyyən edilmiş qaydada qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı və ödənilməlidir.

Elektron ticarət qaydasında işlərin və xidmətlərin alıcısı, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin iştirakçısıvergi orqanlarında uçotda olmayan şəxs olduqda ödənişi aparan yerli bank və ya xarici bankın Azərbaycan Respublikasındakı filialları tərəfindən hesablanan ƏDV alıcının vəsaiti hesabına büdcəyə ödənilir. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış yerli bank və ya xarici bankın Azərbaycan Respublikasındakı filialları tərəfindən vergi orqanlarında uçotda olmayan şəxsdən tutulmuş ƏDV əvəzləşdirilmir.»;

1.50. aşağıdakı məzmunda 174.3-cü maddə əlavə edilsin:

«174.3. Azərbaycan Respublikası ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı tətbiq olunmuş ticarət əlavəsindən ƏDV hesablayan pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri həmin malların uçotunu ayrıca aparır. Belə uçot aparılmadıqda, bu Məcəllənin digər maddələrində göstərilən müddəalardan asılı olmayaraq həmin malların pərakəndə satışı zamanı ƏDV ümumi dövriyyədən hesablanır.»;

1.51. 176-cı maddə üzrə:

1.51.1. 176.2-ci maddədə «Elektron vergi hesab-fakturası» sözlərindən sonra «(ƏDV-nin qaytarılması şərtilə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə təqdim edilən elektron vergi hesab-fakturası istisna olmaqla)» sözləri əlavə edilsin;

1.51.2. aşağıdakı məzmunda 176.2-1-ci maddə əlavə edilsin:

«176.2-1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış, istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması üçün elektron vergi hesab-fakturasının vahid forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.».

1.51.3. 176.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

«176.4. ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərildikdə və ya xidmət göstərildikdə, elektron vergi hesab-fakturası əvəzinə qaimə-faktura və ya elektron qaimə-faktura və ya qəbz və ya çek verilə bilər. Nağd aparılan əməliyyatların rəsmiləşdirildiyi sənədlər bu Məcəllənin 175-ci maddəsinin məqsədləri üçün verginin əvəzləşdirilməsinə əsas vermir və bu Məcəllənin digər maddələrində göstərilən müddəalardan asılı olmayaraq, aparılan əvəzləşdirilmə etibarsız hesab edilir.»;

1.52. 179-cu maddə üzrə:

1.52.1. 179.1-ci maddədə «45» rəqəmi «20» rəqəmi ilə əvəz edilsin;

1.52.2. 179.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

«179.2. Digər vergi ödəyiciləri üçün - əvəzləşdirilən vergi məbləğinin hesabat dövrü ərzində hesablanmış vergi məbləğindən artıq olan hissəsi növbəti 3 aya keçirilir və bu ayların ödəmələrinə aid edilməklə, vergi orqanı tərəfindən bu Məcəllədə nəzərdə tutulan qaydada artıq ödəmələrin dürüstlüyü araşdırılır. Həmin 3 ay müddət bitdikdən sonra dürüstləşmənin başa çatdırılmasından asılı olmayaraq, vergi tutulan əməliyyatlardan yaranan artıq ödəmənin hər hansı qalığı vergi ödəyicisinin ərizəsinə əsasən 20 gün ərzində büdcədən qaytarılır.»;

1.53. 190-cı maddə üzrə:

1.53.1. 190.1-ci maddənin yeddinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

«- idxal olunan xəz-dəri məmulatları.»;

1.53.2. 190.4.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

«190.4.1. minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə görə:

| Vergitutma obyektinin adı | Aksizin dərəcəsi |
|---|---|
| Minik avtomobilləri: | |
| - mühərrikin həcmi 2000 kubsantimetrədək olduqda | Mühərrikin həcminin hər kubsantimetrinə görə - 0, 20 manat |
| - mühərrikin həcmi 3000 kubsantimetrədək olduqda | 400 manat + mühərrikin həcminin 2001- 3000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 3 manat |
| - mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda | 3400 manat + mühərrikin həcminin 3001- 4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 8 manat |
| - mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda | 11 400 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 20 manat |
| - mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda | 31 400 manat + mühərrikin həcminin 5000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə - 40 manat |
| İstirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr | Mühərrikin həcminin hər kubsantimetrinə görə - 6 manat |

1.53.3. 190.4.2-ci maddədə «2,0 manat» sözləri «4,0 manat» sözləri ilə əvəz edilsin;

1.53.4. 190.4.3.1-ci maddədə «0,8 manat» sözləri «1,5 manat» sözləri ilə, 190.4.3.2-ci maddədə «1,0 manat» sözləri «2,0 manat» sözləri ilə, 190.4.3.3-cü maddədə «1,2 manat» sözləri «2,4 manat» sözləri ilə, 190.4.3.4-cü maddədə «1,5 manat» sözləri «3,0 manat» sözləri ilə, 190.4.3.5-ci maddədə «1,8 manat» sözləri «5,0 manat» sözləri ilə, 190.4.3.6-cı maddədə «2,0 manat» sözləri «6,0 manat» sözləri ilə əvəz edilsin;

1.53.5. 190.4.4-cü maddədə «200 manat» sözləri «400 manat» sözləri ilə əvəz edilsin;

1.53.6. aşağıdakı məzmunda 190.4.5-ci maddə əlavə edilsin:

«190.4.5. idxal olunan xəz-dəri məmulatlarının topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinin 10 faizi.»;

1.54. 194-cü maddə üzrə:

1.54.1. 194.2.3-cü maddədə (birinci halda) «qaiməsinə, « sözündən sonra «elektron qaimə-fakturasına, « sözləri əlavə edilsin;

1.54.2. 194.2.8-ci maddədə (birinci halda) «qaimə, « sözündən sonra «elektron qaimə-faktura,» sözləri əlavə edilsin;

1.55. 206.1-ci maddədə «1» rəqəmi «2» rəqəmi ilə əvəz edilsin;

1.56. 218.4.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 218.4.4-cü və 218.4.5-ci maddələr əlavə edilsin:

«218.4.4. fəaliyyət zamanı işçi cəlb edən fiziki şəxslər istisna olmaqla, bu Məcəllənin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada məşğul olan fiziki şəxslər;

218.4.5. mülkiyyətində olan torpaq sahələrinin təqdim edilməsini (bu Məcəllənin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş təqdim edilmə halları istisna olmaqla) həyata keçirən şəxslər.»;

1.57. 219-cu maddə üzrə:

1.57.1. aşağıdakı məzmunda 219.3-2-ci maddə əlavə edilsin:

«219.3-2. Bu Məcəllənin 218.4.5-ci maddəsində göstərilən şəxslər üçün mülkiyyətində olan torpaq sahələri vergitutma obyektidir.»;

1.57.2. 219.5-ci maddədə «və əmlak vergisinin» sözləri çıxarılsın;

1.58. 220-ci maddə üzrə:

1.58.1. 220.8-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

«Bu Məcəllənin 218.4.5-ci maddəsində göstərilən şəxslər üçün sadələşdirilmiş vergi bu Məcəllənin 206.3-cü maddəsində nəzərdə tutulmuş torpaq sahələrinin hər kvadratmetri üçün 0,5 manat olmaqla, bu maddə ilə müəyyən edilmiş qaydada hesablanır. Kənd təsərrüfatı təyinatlı torpaqlara görə sadələşdirilmiş vergi hesablanarkən bu maddə ilə müəyyən olunmuş torpaq sahəsinin yerləşdiyi ərazi üzrə zona əmsalları tətbiq olunmur.

Bu Məcəllənin 218.4.5-ci maddəsində göstərilən şəxslər üçün kənd təsərrüfatı təyinatlı torpaqlar üzrə sadələşdirilmiş vergi bu Məcəllənin 206.1-1-ci maddəsinə uyğun olaraq hesablanmış torpaq vergisinin 2 misli məbləğində hesablanır.»;

1.58.2. 220.8.1-ci maddədə «Bakı şəhəri» sözlərindən əvvəl «və torpaq sahəsi» sözləri, «(binanın faktiki yerləşdiyi)» sözlərindən sonra «, habelə torpaq sahəsinin yerləşdiyi» sözləri əlavə edilsin;

1.58.3. aşağıdakı məzmunda 220.8-2-ci maddə əlavə edilsin:

«220.8-2. Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqları təqdim edən şəxslər üçün sadələşdirilmiş vergi bu Məcəllənin 220.8-ci maddəsinin ikinci abzası ilə hesablanmış məbləğə Bakı şəhəri, habelə onun qəsəbə və kəndlərində 1,5 əmsal, Gəncə, Sumqayıt, Xırdalan şəhərlərində 1,3 əmsal, Abşeron rayonunun qəsəbə və kəndləri, Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində 1,2 əmsal və digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) 1,1 əmsal tətbiq edilməklə hesablanır.»;

1.58.4. aşağıdakı məzmunda 220.10 - 220.12-ci maddələr əlavə edilsin:

«220.10. Bu maddədə nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslər üçün sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən edilir:

| Fəaliyyət növünün adı | Sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğ (manatla) |
|---|---|
| Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət | 30 |
| Fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət | 30 |
| Çəkməçi, pinəçi | 5 |
| Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri | 10 |
| Fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşbaz, gözətçi və digər analoji işlər | 10 |
| Nəqqaşlıq emalatxanalarının fəaliyyəti | 20 |

220.11. Bu Məcəllənin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər üçün aylıq verginin məbləği aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən edilir:

220.11.1 Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) - 2,0;

220.11.2. Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində - 1,5;

220.11.3. Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində - 1,0;

digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) - 0,5;

220.12. Hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə 1 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.»;

1.59. aşağıdakı məzmunda 221.8-ci maddə əlavə edilsin:

«221.8. Bu Məcəllənin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növlərinə görə sadələşdirilmiş vergi aşağıdakı qaydada hesablanır:

221.8.1. Bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslər sadələşdirilmiş vergini bu Məcəllənin 220.10-cu maddəsində göstərilən sabit vergi məbləğinin bu Məcəllənin 220.11-ci maddəsində göstərilən əmsallara vurulması yolu ilə hesablayır və dövlət büdcəsinə ödəyir.

221.8.2. Bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslər qeydiyyatda olduğu yerdən asılı olmayaraq, həmin fəaliyyətin faktiki həyata keçirildiyi ərazi üçün bu Məcəllənin 220.10-cu və 220.11-ci maddələrinə uyğun müəyyən edilən sadələşdirilmiş vergini ödəyirlər. Fiziki şəxs eyni dövr ərzində bu Məcəllənin 220.11-ci maddəsində nəzərdə tutulan müxtəlif əmsallar tətbiq olunan ərazilərdə fəaliyyət göstərərsə, bu zaman ən yüksək əmsal tətbiq edilən ərazi üzrə müəyyən olunmuş sabit vergi məbləği ödənilir.

221.8.3. Bu Məcəllədə başqa hal nəzərdə tutulmamışdırsa, 218.4.4-cü maddədə göstərilən fiziki şəxslər bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə vermirlər.

221.8.4. Bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslər tərəfindən sadələşdirilmiş verginin düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə ödənilməsinə müvafiq icra hakimiyyəti orqanı nəzarət edir.

221.8.5. Bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslər bu Məcəllənin 220.10-cu maddədə nəzərdə tutulan fəaliyyəti həyata keçirməyə başlayanadək, müvafiq icra hakimiyyəti orqanından könüllü olaraq növbəti ay, rüb, yarımil və ya il üçün «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almalıdır. «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» vergi ödəyicisi yazılı müraciət etdikdə iki iş günündən gec olmayaraq, elektron qaydada müraciət etdikdə isə real vaxt rejimində verilir.

221.8.6. Bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslər «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz»i almaq üçün yazılı müraciət etdikdə, sadələşdirilmiş verginin ödənilməsini təsdiq edən ödəniş sənədini müraciətinə əlavə edir, elektron qaydada müraciət etdikdə isə, ödənişi müraciətin edildiyi zaman elektron qaydada həyata keçirir. Ödəniş sənədində vergi ödəyicisinin VÖEN-i göstərilməlidir. Bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslər hesablanmış vergini tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara «Sabit verginin ödənilməsi haqqında qəbz» verilir.»Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz»in forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir və aşağıdakı məlumatları özündə əks etdirir:

221.8.6.1. vergi ödəyicisi olan fiziki şəxsin adı, atasının adı, soyadı;

221.8.6.2. vergi ödəyicisinin VÖEN-i;

221.8.6.3. qəbzin qüvvədə olma müddəti;

221.8.6.4. fəaliyyətin həyata keçirildiyi ərazi;

221.8.6.5. ödənilmiş verginin məbləği;

221.8.6.6. fəaliyyətin adı.

221.8.7. «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» vergi ödəyicisində saxlanılır. Bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fəaliyyətlə məşğul olan fiziki şəxslər tərəfindən ödənilmiş vergi onların «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz»in qüvvədə olduğu müddətdə fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti dövrlərin (ay, rüb, yarım il və il) vergiləri ilə əvəzləşdirilmir.

221.8.8. Bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fəaliyyətlə məşğul olan fiziki şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənarda bu fəaliyyət üzrə göstərilən xidmətlərə görə əldə etdiyi gəlirləri bu Məcəllə ilə müəyyən olunmuş ümumi qaydada müvafiq vergilərə cəlb edilir.

221.8.9. Bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslər bu Məcəllənin 220.10-cu maddəsində müəyyən olunan fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda «Sabit verginin ödənilməsi haqqında qəbz»i hər bir fəaliyyət növü üçün ayrılıqda alırlar.

221.8.10. Bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslərin vergi öhdəliklərini «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» əldə etməklə sadələşdirilmiş qaydada yerinə yetirməsi həmin şəxsləri nağd pul hesablaşmaları zamanı alıcıya bu Məcəllənin 16.1.9-cu maddəsində nəzərdə tutulmuş müvafiq çek (nəzarət-kassa aparatı çeki istisna olmaqla), qəbz və digər ciddi hesabat blanklarını təqdim etmək öhdəliyindən azad etmir.».

**Maddə 2. Keçid müddəaları**

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixdən, bütün digər vergi ödəyiciləri tərəfindən 2018-ci il 1 yanvar tarixdən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməlidir.

**Maddə 3.** Bu Qanun 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2016-cı il.*

## «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun tətbiqi və «Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. iki ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. həmin Məcəllənin 71-1.2-ci maddəsinə uyğun olaraq, elektron qaimə-fakturanın formasını, tətbiqi, uçotu və istifadəsi qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. həmin Məcəllənin 90.3-cü maddəsinin ikinci abzasına uyğun olaraq, elektron hərracın təşkili və keçirilməsi qaydalarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. həmin Məcəllənin 128.3-cü maddəsinə uyğun olaraq, güzəştli vergi tutulan ölkələr və ya ərazilər barədə təkliflərini 2017-ci il üzrə bu Fərman qüvvəyə mindiyi gündən bir ay müddətində, növbəti illər üzrə isə hər il dekabr ayının 20-dək hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Vergilər Nazirliyi:

2.1. bir ay müddətində:

2.1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 14-1.9-cu maddəsində nəzərdə tutulmuş transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi qaydasını müəyyən etsin;

2.1.2. həmin Məcəllənin 16.1.4-cü və 17.6-cı maddələrində nəzərdə tutulmuş arayış formalarını müəyyən etsin;

2.1.3. həmin Məcəllənin 16.1.11-4-cü və 72.5-1-ci maddələrində nəzərdə tutulmuş hesabat formalarını, 90.3-cü maddəsinin üçüncü abzasında ikinci halda, 90.3-3-cü və 90.3-4-cü maddələrində nəzərdə tutulmuş məlumat formalarını, 150.3-3-cü maddəsində nəzərdə tutulmuş bəyannamə formasını, 221.8.6-cı maddəsində nəzərdə tutulmuş qəbz formasını müəyyən etsin;

2.1.4. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə həmin Məcəllənin 24.0.7-2-ci maddəsində nəzərdə tutulmuş ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatının aparılması qaydasını müəyyən etsin;

2.1.5. həmin Məcəllənin 165.4-cü maddəsinə uyğun olaraq, ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış, istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş ƏDV-nin qaytarılması qaydası ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Məcəllənin 130-1-ci maddəsinə uyğun olaraq, pərakəndə ticarət və ictimai iaşə sahələri üzrə bir ay, digər iqtisadi fəaliyyət sahələri üzrə isə üç ay müddətində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. vergi ödəyicilərinin əldə etdikləri gəlirlərin və xərclərin uçotunun, eləcə də nağdsız əməliyyatların aparılmasına, e-ticarətin vergiyə cəlb edilməsinə və səyyar vergi yoxlamaları zamanı vergi üstünlüyü əldə etmək məqsədilə qanunvericiliyin tələblərindən sui-istifadə etməklə aparılan əməliyyatlara ciddi nəzarət olunması istiqamətində bütün zəruri tədbirlərin görülməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

3.1. vergi ödəyicisinin siyahıya alınmış əmlakının elektron hərracda və ya satışı elektron formada həyata keçirən ticarət şəbəkələrində satışı ilə bağlı zəruri məlumatlandırma işlərinin aparılmasını, satışa çıxarılan əmlakların aktual elektron bazasının yaradılmasını, vergi ödəyicisinin siyahıya alınmış əmlakının hərracda (o cümlədən elektron hərracda) və ya ticarət şəbəkələrində (o cümlədən satışı elektron formada həyata keçirən ticarət şəbəkələrində) satışının daha operativ və səmərəli həyata keçirilməsi məqsədilə bütün zəruri tədbirlərin görülməsini təmin etsin;

3.2. daşınmaz əmlakın icarəsi ilə bağlı aparılan notariat əməliyyatları barədə məlumatı hər ay başa çatdıqdan sonra növbəti ayın 20-dək Azərbaycan Respublikasının Vergilər Nazirliyinə onun müəyyən etdiyi elektron formada təqdim etsin.

4. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikası Vergi Məcəlləsinin 165.4-cü maddəsinə uyğun olaraq, ticarət festivallarının təşkili qaydasını bir ay müddətində müəyyən etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.36-cı maddəsində nəzərdə tutulan qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi qaydası ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6. Səhmlərinin və paylarının nəzarət zərfi dövlətə məxsus olan dövlət (büdcə) təşkilatları onlara dövlət büdcəsinin investisiya xərcləri hesabına ayrılmış vəsaitlər hesabına alınan və ya quraşdırılan aktivlər barədə məlumatları ildə bir dəfə növbəti il yanvar ayının 20-dək Azərbaycan Respublikasının Vergilər Nazirliyinə onun müəyyən etdiyi elektron formada təqdim etsin.

7. «Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №-8 (III kitab), maddə 616; 2005, №-12, maddə 1099; 2006, №- 5, maddə 400, №-12, maddə 1034; 2007, №- 4, maddə 323, №-12, maddə 1225; 2008, №-11, maddə 972; 2009, №-3, maddə 163, №- 4, maddə 226, №-10, maddə 780; 2010, №-7, maddə 610; 2011, №-7, maddə 631; 2013, №-7, maddə 805, №-11, maddə 1324; 2014, №-4, maddə 359, №-5, maddə 477, №-9, maddə 1027, №-10, maddə 1198, №-11, maddələr 1390, 1420; 2015, №-1, maddə 12, №-12, maddə 1454; 2016, №-2 (II kitab), maddələr 261, 265, №-3, maddə 450, №-5, maddə 882, №-6, maddələr 1023, 1024, 1042, 1065, №-7, maddə 1257, №-9, maddə 1464, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 30 noyabr tarixli 1131 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.1-ci bənddə «102.1.21-ci,» sözlərindən sonra «106.1.5-ci,» sözləri, «122.3-cü,» sözlərindən sonra «128.3-cü, 130-1-ci,» sözləri, «164.1.35-ci,» sözlərindən sonra «164.1.36-cı,» sözləri və «165.3-cü,» sözlərindən sonra «165.4-cü (ikinci halda),» sözləri əlavə edilsin;

7.2. 1.2-ci bənddə «50.7-ci» sözlərindən sonra «, 71-1.2-ci» sözləri, «87.4-cü,» sözlərindən sonra «90.3-cü (ikinci abzasda),» sözləri, «175.8-ci,» sözlərindən sonra «176.2-1-ci,» sözləri əlavə olunsun, «76.2-1-ci (birinci halda)» sözləri «76-1-ci (birinci halda)» sözləri ilə əvəz edilsin;

7.3. 1.4-cü bənddə «həmin Məcəllənin» sözlərindən sonra «14-1.9-cu,» sözləri, «15.1.15-2-ci,» sözlərindən sonra «16.1.4-cü,» sözləri, «16.1.10-cu» sözlərindən sonra «, 16.1.11-4-cü» sözləri, «16.3-cü maddəsinin birinci cümləsində,» sözlərindən sonra «17.6-cı,» sözləri, «20.1-ci,» sözlərindən sonra «24.0.7-2-ci,» sözləri, «38.5-ci,» sözlərindən sonra «38.8-ci,» sözləri, «72.2-ci maddəsinin birinci abzasında,» sözlərindən sonra «72.5-1-ci,» sözləri, «150.3-2-ci,» sözlərindən sonra «150.3-3-cü,» sözləri, «221.5-ci» sözlərindən sonra «, 221.8.4-cü, 221.8.5-ci, 221.8.6-cı» sözləri əlavə olunsun, «76.2-1-ci (ikinci halda)» sözləri «76-1-ci (ikinci halda)» sözləri ilə, «90.3-cü maddəsinin ikinci abzasında (ikinci halda),» sözləri «90.3-cü maddəsinin üçüncü abzasında (ikinci və üçüncü hallarda), 90.3-3-cü (hər iki halda), 90.3-4-cü (hər iki halda),» sözləri ilə əvəz edilsin;

7.4. 1.20-ci bənddə «ikinci» sözü «üçüncü» sözü ilə əvəz edilsin;

7.5. 1.30-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.31-ci və 1.32-ci bəndlər əlavə edilsin:

«1.31. həmin Məcəllənin 165.4-cü maddəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir;

1.32. həmin Məcəllənin 106.1.5-ci maddəsində «qurum» dedikdə, «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» publik hüquqi şəxs nəzərdə tutulur.».

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

9. Bu Fərman 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2016-cı il*

# Vergi amnistiyası 44 mindən çox vergi ödəyicisini əhatə edəcək

Dekabrın 26-da Vergilər Nazirliyində «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» qanun layihəsinin izahına həsr edilmiş brifinq keçirilib. Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Vergi cinayətlərinin təhlili və vergi borclarının alınması işinin təşkili Baş İdarəsinin rəisi Zeynalabdin Məmmədzadə bildirib ki, sənəd Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə hazırlanıb və ölkəmizdə sahibkarlığın stimullaşdırılması, əlverişli biznes mühitinin formalaşdırılması və vergi yükünün optimallaşdırılması məqsədini daşıyır. Qanun layihəsinin artıq Milli Məclisinin plenar iclasına tövsiyə olunduğunu qeyd edən Z.Məmmədzadə, qəbul olunacağı təqdirdə, sənədin 2017-ci ilin 1 yanvar tarixindən qüvvəyə minəcəyini bildirib.

Media nümayəndələrinin nəzərinə çatdırılıb ki, Vergi Məcəlləsinin tələblərinə əsasən, vergi borcları vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclardan ibarətdir. Sözügedən qanun layihəsi vergi ödəyicilərinin yalnız faiz və maliyyə sanksiyaları üzrə 1 yanvar 2017-ci il tarixə mövcud olan borclarını tənzimləyəcək. Yəni qanun layihəsində vergi ödəyicilərinin vergilər üzrə borclarının əsas məbləğinin silinməsi nəzərdə tutulmayıb. Qeyd olunub ki, faiz və maliyyə sanksiyaları üzrə borcların 2 qaydada - birdəfəyə və mərhələli şəkildə silinməsi nəzərdə tutulur. 1 yanvar 2017-ci il tarixə vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış faizlər və nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə Vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən tətbiq edilmiş maliyyə sanksiyaları üzrə borclar birdəfəyə istisnasız silinəcəkdir. Digər maliyyə sanksiyaları üzrə borcların isə mərhələli şəkildə və müəyyən şərtlər daxilində silinməsi nəzərdə tutulur. 1 yanvar 2017-ci il tarixə mövcud olan maliyyə sanksiyaları üzrə borcların gələn ilin ilk ayı ərzində 30 faizi ödənildikdə yerdə qalan borcların 70 faizi, yanvar-fevral ayları ərzində 50 faizi ödənildikdə yerdə qalan borcların 50 faizi, yanvar-mart ayları ərzində isə 70 faizi ödənildikdə yerdə qalan borcların 30 faizi silinəcəkdir. Qanunun müddəaları vergi ödəyicilərinin faiz və maliyyə sanksiyaları üzrə borclarının məcburi ödənilməsi ilə bağlı məhkəmə qərarı qəbul edilmiş hissələrinə də şamil ediləcəkdir. Qanun 44.000-dən çox vergi ödəyicisini əhatə edəcək ki, onların da 97 faizdən çoxu özəl sektorda çalışan sahibkarlardır.

Bildirilib ki, qanunun tətbiqi ilə bağlı sahibkarlar vergi ödəyicilərinə xidmət mərkəzlərindən, elektron şəkildə müraciət etməklə vergi orqanlarından, yaxud Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzindən öz vergi borcları, habelə qanundan irəli gələn digər məsələlər barədə ətraflı məlumat ala bilərlər.

# AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR NAZİRLİYİ

## ərazi vergi orqanlarında və rayon vergilər şöbələrində vakant vəzifələrə işə qəbul üzrə müsabiqə

# ELAN EDİR

Müsabiqədə hüquqşünaslıq, iqtisadiyyat və idarəetmə ixtisas istiqamətlərinə uyğun ixtisaslar üzrə ali təhsili olan (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar iştirak edə bilərlər.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən, vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

* məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti məhdud olan və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
* üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Müsabiqəyə sənədlər elektron ərizə vasitəsilə 5 yanvar 2017-ci ildən 18 yanvar 2017-ci il saat 24:00-dək qəbul edilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (***www.taxes.gov.az və www.e-taxes.gov.az***) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə iş nömrəsi verilir. Namizəd sənədləri qəbul etdikdən beş gün ərzində verilmiş iş nömrəsi əsasında ərizəsinin qəbul edilib-edilmədiyi barədə məlumat ala bilər.

Namizədlər internet vasitəsilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda Vergilər Nazirliyinə (tel: 012-403-81-35), Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Sənədləri qəbul edilən namizədlər imtahana buraxılış vərəqələrini 25 yanvar 2017-ci ildən 27 yanvar 2017-ci il saat 18:00-dək Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı 28 yanvar 2017-ci ildə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı Vergilər Nazirliyinin rəsmi internet saytının (***www.taxes.gov.az***) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

**Diqqət!** Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan vətəndaşlara üstünlük verilir. Vətəndaş ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dilini bilmə səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

Müsabiqədə uğur qazanan vətəndaşlara ərazi vergi orqanlarında və ya rayon vergilər şöbələrində vakant vəzifələr üzrə iş təklif ediləcəkdir. Göstərilən təklifdən imtina edən şəxslər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

## "Synergy Baku" ilin ən yaxşı klub komandasıdır




«Buta Palace»da 2016-cı ilin idman yekunlarına həsr olunmuş təntənəli mərasim keçirilib. Mərasimdə Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, müxtəlif federasiya rəsmiləri, idman ictimaiyyətinin nümayəndələri və jurnalistlər iştirak ediblər.

Tədbir zamanı 2016-cı ilin idman yekunlarına əsasən, bir sıra nominasiyalar üzrə mükafatlar təqdim olunub. Mükafatlandırılanlar arasında Azərbaycanın kontinental velosiped komandası «Synergy Baku» da yer alıb. Belə ki, il ərzində keçirilən yarışlarda uğurlu nailiyyətlərinə görə, kollektiv Azərbaycanda «İlin ən yaxşı klub komandası» nominasiyasının qalibi kimi xüsusi mükafata layiq görülüb.

Qeyd edək ki, 2016-cı ildə «Synergy Baku» iştirak etdiyi 4 qitə yarışında - «Tour of Croatia», «Tour d'Azerbaidjan», «Tour of Serbia» və «Tour of Szeklerland» (Rumıniya) yarışlarında komanda hesabında çempion adını qazanıb. Komandamızın təmsilçiləri il ərzində mübarizə apardıqları yarışlarda 34 dəfə fəxri kürsüyə qalxıb, 9 dəfə mərhələ qalibi olub, 5 dəfə isə bu idman növündə ən yüksək nəticə hesab olunan lider köynəyini əldə ediblər.

Xatırladaq ki, Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) dünyanın velosiped komandalarının 2016-cı il üçün açıqladığı yekun reytinq siyahısında təmsilçimiz planetin bütün qitələrini təmsil edən 54 ölkənin 176 kontinental klubu arasında 4-cü yerdə qərarlaşıb. Siyahıda Belçikanın 3 klubu «Synergy Baku»nu qabaqlaya bilib ki, bu da ölkələr üzrə götürəndə, 54 ölkə arasında cəmi bir komandası olan Azərbaycanın yalnız Belçikadan geri qalmaqla dünyada 2-ci yerə çıxdığını göstərir.

## Azərbaycan güləşçiləri 2016-cı ili yüksək nailiyyətlərlə başa vurub



Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, yığma komandalarımızın üzvləri 2016-cı ildə iştirak etdikləri rəsmi beynəlxalq yarışlarda - Olimpiya Oyunları, Avropa və Dünya çempionatlarında 17 qızıl, 23 gümüş, 46 bürünc olmaqla toplam 86 medal qazanıb. Son 8 ilə nəzər saldıqda rəsmi yarışlarda güləşçilərimizin nailiyyətlərinin artan templə davam etdiyini görürük. Belə ki, 2009-cu ildə 47, 2010-cu ildə 66, 2011-ci ildə 67, 2012-ci ildə 71, 2013-cü ildə 70, 2014-cü ildə 65, 2015-ci ildə 82 medal qazansa da 2016-cı ildə bu rəqəm 86-ya yüksəlib.

***Böyüklər:*** İlin əvvəlində Latviyanın paytaxtı Riqada keçirilən Avropa çempionatında 2 qızıl, 2 gümüş və 4 bürünc medal qazanan güləşçilərimiz ilə uğurla başlayıb. Yunan-Roma güləşçilərimiz komanda hesabında 3-cü nəticə göstərib.

Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya Oyunlarında güləşçilərimiz ölkəmizin idman şərəfini ləyaqətlə qoruyublar və 9 medal (3 gümüş və 6 bürünc) qazanmaqla güləş tarixində yeni bir səhifə yazıblar. Sərbəst güləşçilərimiz 6 idmançıya 5 medal qazanaraq medal sayına görə bütün komandaları qabaqlayıb.

Makedoniyanın Skopye şəhərində keçirilən hərbçilərin Dünya çempionatında pəhlivanlarımız 2 qızıl, 4 gümüş və 3 bürünc medalla tamamlayıb. Yunan-Roma güləşçilərimiz komanda hesabında dünya ikincisi olub.

İlin sonunda Macarıstanın paytaxtı Budapeştdə tarixdə ilk dəfə keçirilən qeyri-Olimpiya çəki dərəcələri üzrə Dünya çempionatını da güləşçilərimiz üçün uğurlu hesab etmək olar. Bir çox aparıcı güləş ölkələrinin medal qazana bilmədiyi Dünya çempionatını hər növdə iki idmançı ilə təmsil olunan yığmamız 2 bürünc medalla tamamlayıb.

***U-23:*** Bolqarıstanın Ruse şəhərində tarixdə ikinci dəfə keçirilən 23 yaşa qədər güləşçilərin (U-23) Avropa çempionatını komandamız 3 qızıl, 4 gümüş və 6 bürünc medalla tamamlayıb və ötənilki nəticəni (9 medal) daha da yaxşılaşdırıb.

***Gənclər:*** Rumıniyanın paytaxtı Buxarestdə keçirilən Avropa çempionatında pəhlivanlarımız ümumilikdə 12 medala (5 qızıl, 2 gümüş, 5 bürünc) sahib olublar. Həm sərbəst, həm də yunan-Roma güləşçilərimiz komanda hesabında 3-cü nəticə göstərib.

Fransanın Makon şəhərində keçirilən Dünya çempionatında Azərbaycan yığması 8 (2 qızıl, 1 gümüş və 5 bürünc) medal qazanıb. Sərbəst güləşçilərimiz komanda hesabında dünya ikincisi olub.

***Yeniyetmələr:*** 2016-cı il yeniyetmə güləşçilərimiz üçün də uğurlu olub. Belə ki, pəhləvanlarımız İsveçin paytaxtı Stokholm şəhərində təşkil edilən Avropa çempionatında 15 (1 qızıl, 4 gümüş və 10 bürünc) medal qazanıb (ötən il bu rəqəm 9 olub), sərbəst güləşçilərimiz komanda hesabında ikinci olub.

Gürcüstanın paytaxtı Tbilisidə keçirilən Dünya çempionatında isə güləşçilərimiz 10 (2 qızıl, 3 gümüş və 5 bürünc) medal qazanıblar. Komanda hesabında yunan-Roma güləşçiləri ikinci, sərbəst güləşçilər isə 3-cü nəticə göstərib.

Bundan başqa, yığma komandalarımız bu il 9-cu dəfə keçirilən Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə Qızıl Qran Pri beynəlxalq turnirinin final mərhələsi (7 qızıl, 3 gümüş və 7 bürünc medal) də daxil olmaqla iştirak etdikləri digər beynəlxalq turnirlərdə 169 medal qazanıb. Bu medalların 45-nin əyarı qızıl, 38-i gümüş və 86-nın əyarı isə bürünc olub.

Beləliklə, 2016-cı il ərzində güləşçilərimiz 255 (62 qızıl, 61 gümüş, 132 bürünc) medal qazanıblar. Bu medallardan 84-ü yeniyetmə, 55-i gənc güləşçilərin payına düşür. U-23 Avropa çempionatında 13 medal qazanan güləşçilərimiz böyüklərin yarışında isə il ərzində 103 medala sahib olub. İl ərzində əldə etdiyimiz medalların 130-nu sərbəst, 94-nü yunan-Roma güləşçiləri qazanıb, 31 medal isə qadın güləşçilərin payına düşüb.

mozaika

cəmiyyət

## Səyahət zamanı bank kartınız itdikdə...



Səyahətə yollanarkən yalnız müsbət təəssürat və emosiyalar gözləyirik. Lakin təəssüflər olsun ki, bəzən sənəd və yaxud pulumuzun oğurlanması kimi xoşagəlməz hadisə ilə də üzləşirik. Turistlər rahatlığa böyük əhəmiyyət verdiyindən və adətən pulların bank kartında saxladıqlarından, səyahət zamanı bank kartının itirilməsi vəziyyətində nə etməli olduğumuzu banker.az saytında aydınlıq gətirilib. Beləliklə, səyahət zamanı bank kartınız itirilərsə:

*1. Kartınızın itdiyini anladığınız an dərhal pullarınızı internet bankçılığı vasitəsilə digər bir hesaba və yaxud karta köçürün. Əgər internet bankçılığa girişiniz yoxdursa və yaxud bu xidmətdən istifadə etmirsinizsə, ləngimədən ikinci qaydaya riayət edin.*

*2. Əgər kartınızın oğurlandığına tam əmin deyilsinizsə (ola bilsin ki, oteldə unutmusunuz), kartdan nağd vəsaitlərin çıxarılması ilə bağlı müvəqqəti 0 limiti qoyun. Bunu öz bankınıza zəng etməklə həll edə bilərsiniz. Beləliklə, kartınızın harada olduğunu dəqiqləşdirmək və yaxud oğurlandığı faktını təsdiq etmək üçün bir qədər zamanınız olacaq.*

*3. İtmiş kartı blok edin. Bunu mümkün qədər tez bir zamanda etmək lazımdır. Kartı isə banka zəng etməklə, internet bankçılığı ilə və yaxud mobil tətbiqetmə ilə blok edə bilərsiniz.*

*4. Yaxınlarınızdan və ya dostlarınızdan sizə pul göndərməsini xahiş edin. Əgər itən kartınızdan əlavə, daha bir kartınız da varsa, həmin karta pul göndərmələrini istəyə bilərsiniz. Yox, əgər başqa kartınız yoxdursa, beynəlxalq pul köçürmələri sistemlərindən birinin xidmətindən yararlana bilərsiniz.*

*5. Polisə müraciət edin. Əgər bank kartınız ilə birgə nağd pullarınız və ya sənədləriniz də (adətən, şəxsiyyət vəsiqəsi) oğurlanıbsa, yaxud itibsə, mümkün qədər tez polisə müraciət etmək lazımdır.*

*6. İtən kartınız olduğunuz ölkədə tapılmadığı halda, geri döndükdə yeni kart sifariş verin. Bunun üçün müştərisi olduğunuz banka gəlmək, ərizə yazmaq və bir neçə gün gözləmək lazımdır. Bəzi banklarda kartların yenilənməsi ödənişlidir və qiymət kartın növündən asılı olaraq dəyişə bilər.*

texnologiya

## "Facebook"da yeni funksiyalar

«Facebook» messenger tətbiqinə birdən çox istifadəçiylə görüntülü danışma xüsusiyyətini əlavə edib. 50-yə qədər şəxsin iştirak edə biləcəyi söhbət qruplarında ən çox altı adamla görüntülü danışmaq imkanı təqdim edilir. Şəbəkədəki dostlarınızla görüntülü qrup danışığı etmək üçün içində olduğunuz və ya yeni açılan söhbət qrupunun sağ tərəfində, üstdə video işarəsinə toxunmağınız kifayət edəcək. Yeni funksiyanı hazırda «iOS»larda həyata keçirmək mümkündür. «Android» platformalı telefonlarda isə onun nə vaxt istifadəyə veriləcəyi hələlik açıqlanmayıb.

«Facebook» sosial şəbəkəsi ilə bağlı yeniliklərdən biri də «Live Audio» xidmətinin sınaqdan keçirilməsidir. Bu xidmət sayəsində onlayn rejimdə audio yayımlar həyata keçirmək mümkün olacaq. Funksiya öncə radiostansiyalara və audiokontentlə işləməyə üstünlük verən şirkətlərə istiqamətlənib. Sosial şəbəkənin ilk tərəfdaşları BBC və LBC olublar.

İstifadəçilər «Android» və «iOS» əməliyyat sistemlərində «Facebook» əlavəsində radio dinləyə biləcəklər. Bununla belə, «iPhone» və «iPad» sahibləri üçün striminq yalnız sosial şəbəkənin açıq xidmətində əlçatan olacaq. «Android» cihazların istifadəçiləri isə yayımları cihazın ekranı blokda olan zaman da dinləyə biləcəklər.

«Facebook» sosial şəbəkənin bütün iştirakçıları üçün artıq 2017-ci ilin əvvəlindən audio yayımlara başlamağı planlaşdırır.

elm

## Yada düşər xatirələr...

Bir qrup amerikalı neyrofizioloq insanlara itirilmiş xatirələri qaytara biliblər. Alimlər bunun üçün bir qrup könüllü üzərində təcrübələr aparıblar. Təcrübə zamanı könüllülərə müxtəlif insan üzləri, sözlər və həndəsi fiqurlar olan şəkillər göstərilib. Daha sonra bioloqlar həmin şəxslərə digər görüntülər nümayiş etdiriblər.

Nəticədə təcrübədən keçirilənlər ilk görüntüləri unutduqda alimlər maqnit sahəsinin köməyi ilə əsəb hüceyrələrini stimullaşdırmağa çalışıblar. Məlum olub ki, bu stimullaşdırma prosesləri əsəb hüceyrələrinin dərhal impuls mübadiləsi həyata keçirməsinə səbəb olub. Nəticədə əvvəlcə silinən görüntülər yenidən yaddaşda bərpa olunub.

araşdırma

## Gizli inkişaf edən eşitmə probleminə nəzarət olunacaq

Yaşlı adamların eşitmə testlərinin nəticələri çox vaxt normal və ya təxminən normal olduğu halda, onlar hər gün eşitmə çətinlikləri ilə qarşılaşırlar. Bu isə o deməkdir ki, eşitmənin itirilməsi həkimlərin düşündüyündən, bizim güman etdiyimizdən də geniş yayılmış təzahürdür. Amma indi mütəxəssislər ənənəvi audioqramların üzə çıxara bilmədiyi gizli inkişaf edən eşitmə problemlərini müəyyən etməyin daha səmərəli üsulunu tapıblar.

Konnektikut Universiteti nəzdindəki tibb məktəbindən olan bir qrup tədqiqatçı yeni test hazırlayıb. Bu test ənənəvi testlərdə normal və ya təxminən normal eşitmə qabiliyyəti olan bəzi şəxslərdə karlıq, yaxud eşitmə çatışmazlığını müəyyən etməyə imkan verəcək. Yeni testlə insanın normal söhbətdə müşahidə edilən ucalıq səviyyələrinə yaxın səviyyələrdəki səs dəyişikliklərini aşkar etmək qabiliyyəti ölçülür.

Tədqiqatda audioqramları normal və ya təxminən normal olan 30-67 yaşlarında 30 adam iştirak edib. Məlum olub ki, klinik sınaqlarda normal nəticələri olan iştirakçılarda eşitmə ilə bağlı xeyli çatışmazlıqlar var. Bu isə o deməkdir ki, binaural eşitmə testi terapevtik müdaxilənin köməyi ilə biləcəyi həssas qrupları müəyyən edə bilər.




ELAN

**«Vergilər» qəzetinə
2017-ci il üçün
abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


Müdriklər deyib ki...



*«İnsanları aldatmaq onları aldandıqlarına inandırmaqdan asandır».*
*Mark Tven (1835-1910)*